

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 135 (5123) **29 iyul** 2016-cı il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Ətraf mühitin mühafizəsi daim diqqət mərkəzindədir

## *İlham Əliyev:"Bakıda indi havanın meyarları yüksək səviyyədədir"*


Səh → 2





→ 3


"Bu gün 550 milyonluq Avropa 800 min qaçqın problemi qarşısında aciz qalıb"




→ 4


"Konstitusiyaya təklif olunan dəyişikliklər siyasi sistemin və idarəetmənin təkmilləşdirilməsi məqsədini daşıyır"




→ 7


Erməni üsyanı: lokal xarakteri və geosiyasi riskləri



# Ətraf mühitin mühafizəsi daim diqqət mərkəzindədir

## İlham Əliyev:”Bakıda indi havanın meyarları yüksək səviyyədədir”

***Ətraf mühitin mühafizəsi məsələsi, bütün dünyada olduğu kimi, Azərbaycan da diqqətdə dayanan əsas məsələlərdən biridir. Bütün sahələrdə olduğu kimi, ətraf mühitin mühafizəsi, ekoloji problemlərin həlli məqsədi ilə ölkədə ardıcıl ekoloji siyasət yürüdülür. Zəngin təbii sərvətlərə və inkişaf etmiş sənaye sahələrinə malik olan Azərbaycanda ekoloji problemlərin həllini tapması üçün qəbul olunan sənədlər ekoloji tarazlığın, ətraf mühitin mühafizəsi sahəsində müstəsna rol oynayır.***



Azərbaycan Prezidenti Cənab İlham Əliyevin imzaladığı fərmanlarda, dövlət proqramlarında ekoloji mühitin sağlamlaşdırılması məqsədilə nəzərdə tutulan hədəflər öz həllinin tapır. Biomüxtəlifliyin mühafizəsi, meşələrin inkişafı, yaşıllıqların artırılması, su ehtiyatlarının davamlı idarə olunması sahəsində nəzərəçarpacaq nailiyyətlər əldə olunub. Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə edilməsi respublikada aparılan sosial-iqtisadi islahatların tərkib hissəsindən biridir. Belə ki, ətraf mühitin yaxşılaşdırılması istiqamətində “Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı”, “2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı” və digər proqramlarda nəzərdə tutulmuş ekoloji tədbirlər həyata keçirilir. Ekoloji siyasətin həyata keçirilməsinin təzahürü kimi respublikamızda Avropa standartlarına uyğun müvafiq qanunvericilik bazası yaradılıb, ətraf mühit üzrə Dövlət İdarəetmə Sistemin təkmilləşdirilib. Ətraf mühitin sağlamlaşdırılması məsələlərinə də göstərilən gündəlik qayğının, həyata keçirilən ardıcıl tədbirlərin nəticəsində, ölkəmizdə ekoloji durum əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Ekoloji problemlərin aradan qaldırılması və səmərəli idarəetmə sisteminin yaradılması istiqamətində nailiyyətlər əldə olunub. Atmosfer havasının çirklənməsi ilə bağlı aparılan monitorinqlərin də nəticəsi bu reallığı əks etdirir. Belə ki, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan, Naxçıvan, Lənkəran və Şəkidə yerləşən 26 müşahidə məntəqəsində həyata keçirilən monitorinqlər zamanı qeyd olunan şəhərlərdə yüksək çirklənmə halları qeydə alınmamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Prezidenti Cənab İlham Əliyev ekoloji tədbirlərin davam etdirilməsinin önəmliyini diqqətə çəkərək, son illər ərzində həm Bakı şəhərində, həm bölgələrdə bu istiqamətdə çox böyük işlər görüldüyünü bildirib. Xüsusilə də, paytaxt Bakının havasının təmizləndiyini diqqətə çəkib:”Bakıda indi havanın meyarları yüksək səviyyədədir. Bunu hər bir vətəndaş hiss edir. Bəziləri unudurlar ki, əvvəlki vəziyyət necə idi. Ancaq biz bunu xatırlayırıq. Bir neçə strateji layihə öz həllini tapmışdır. Onların içərisində mən, əlbəttə ki, Balaxanı zibilxanasının ləğvini və burada böyük zibilyandırma zavodunun tikintisini, xüsusilə qeyd etmək istəyirəm. Vaxtilə şəhərimizin havasını ən çox zəhərləyən elə Balaxanı zibilxanası idi. Yanırdı, şəhərimizi tüstü bürüyürdü və o zonada havanın çirklənməsi həddindən artıq yüksək idi. Bu, çox böyük ekoloji və sağlamlıq layihəsi oldu”.

Cənab Prezident İlham Əliyev Balaxanı Texnologiya Parkının yaradıldığını da xatırladıb. İllərlə buraya lay suları, neftlə çirklənmiş sular, kanalizasiya suları axıdıldığı halda, indi ətrafında gözəl mənzərə diqqəti cəlb edir. Cənab İlham Əliyev Bibiheybət Buxtasının təmizlənməsinin də uğurla başa çatdığını bildirib:”Vaxtilə bu da bir ekoloji fəlakət mənzərəsi idi. Bu gün orada gözəl parklar salınıb. Birinci Avropa Oyunları yarışlarının bir hissəsi orada keçirilibdir. Böyük Su İdmanı Sarayı, digər idman qurğuları tikilibdir. Bayraq Meydanından ta Bibiheybət Buxtasınadək yaşıllıq zonaları, bulvar salınıbdır. Bu da, əlbəttə ki, şəhərimizi çirkləndirirdi - Balaxanı bu tərəfdən, Qaraşəhər başqa tərəfdən. Orada da böyük təmizləmə işləri aparılmışdır, torpaq qatları götürülmüşdür. Orada vaxtilə neftayırma zavodunun bütün tullantıları yığışırdı. İndi biz Qaraşəhəri Ağ Şəhərə çeviririk”.

Ölkəmizin iqtisadi gücü artdıqca ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi sahəsində də əsaslı dönüş yaranır, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində ardıcıl tədbirlər həyata keçirilir.

“Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması proqramı” da uğurla davam etdirilir. Ümumilikdə, əhalinin ekoloji cəhətdən təmiz içməli suya olan tələbatının ödənilməsi məqsədi Azərbaycanın iyirmidən artıq rayonuna modul tipli sutəmizləyici qurğular quraşdırılaraq, 530 min əhali keyfiyyətli içməli su ilə təmin edilmişdir. Bu gün dünyanın ən böyük ultrasüzgəcli sutəmizləmə qurğusu Azərbaycanda tikilib və istifadəyə verilibdir. Cənab İlham Əliyevin dediyi kimi, indi əhalimizin böyük hissəsi Dünya Səhiyyə Təşkilatının normalarına uyğun su ilə təmin olunur. Bu layihələrin hər biri tarixi əhəmiyyət daşıyan layihələrdir. Bakıda yerləşən yod zavodunun bütün qalıqları çıxarılıb. O da bir tərəfdən ekologiyanı zəhərləyirdi. Baxın, bunlar insanların sağlamlığına nə qədər ziyan vururdu. İndi bunların heç biri yoxdur”.

Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi indiki və gələcək nəsillərin sağlam mühitdə yaşamasına hesablanılıb və bütün görülən işlər Azərbaycan dövlətinin ekoloji siyasətinin əsas istiqamətləridir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev Binəqədi-Novxanı-Corat avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama görə, yetmiş iki min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Binəqədi-Novxanı-Corat avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində “Avtomobil Yolları” Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən 5,9 milyon manat ayrılıb. Maliyyə Nazirliyi və “Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinə nəzərdə tutulan məbləğdə maliyyələşməni və tikinti işlərini müəyyən olunmuş qaydada təmin etmək tapşırılıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Peru Respublikasının Prezidenti Zati-aliləri cənab Pedro Pablo Kuçinskiyə təbrik məktubu ünvanlayıb. Təbrik məktubunda deyilir: “Hörmətli cənab Prezident, Peru Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Peru arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik. Eyni zamanda ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Peru xalqına əmin-amanlıq və firavanlıq diləyirəm”.

# Əli Həsənov: “Bu gün 550 milyonluq Avropa 800 min qaçqın problemi qarşısında aciz qalıb”

*Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının sədri Əli Həsənov iyulun 28-də Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Cənub-Şərqi Avropa, Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru xanım Argentina Szabados ilə görüşüb.*



Görüşdə Baş nazirin müavini Əli Həsənov xalqımızın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin müxtəlif vaxtlarda Beynəlxalq Miqrasiya Təşkilatının baş direktorları ilə görüşlərini xatırladıb və təşkilatla ölkəmiz arasında münasibətlərin mövcud vəziyyəti, inkişaf perspektivləri, miqrasiya sahəsində mövcud olan uğurlu əməkdaşlığın daha da gücləndirilməsi və genişləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

Əli Həsənov BMqT-nin Bakıdakı ofisinin fəaliyyətini yüksək qiymətləndirərək, müxtəlif sahələrlə bağlı həyata keçirilən humanitar və inkişaf layihələrinə görə təşəkkürünü bildirib, ölkəmizin bu təşkilatla əməkdaşlığın gücləndirilməsi kontekstində yeni layihələrə açıq olduğunu diqqətə çatdırıb. BMqT-nin Azərbaycandakı nümayəndəliyinin həyata keçirdiyi layihələr çərçivəsində əldə olunan nailiyyətlərə və miqrasiya sahəsində qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinə dair hərtərəfli fikir mübadiləsi aparılan görüşdə Baş nazirin müavini Əli Həsənov qeyd edib ki, ölkəmizdə fəaliyyət göstərən beynəlxalq qurumlar içərisində Beynəlxalq Miqrasiya Təşkilatı ilə əməkdaşlığa hökumət daha çox önəm verir: “Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bizim üçün yeni olan miqrasiya probleminin həlli ilə bağlı milli qanunvericilik bazasının yaradılmasında və digər hüquqi sənədlərin hazırlanmasında bu təşkilatın təcrübəsindən istifadə olunub. Bu gün Azərbaycan beynəlxalq konvensiyalara qoşulub, bütün milli qanunvericiliyimiz beynəlxalq standartlara uyğunlaşdırılıb və bu sahədə kifayət qədər hüquqi baza formalaşıb. Bundan sonra da bu təşkilatla əməkdaşlığı davam və inkişaf etdirmək Azərbaycan hökumətinin marağındadır”.

Beynəlxalq Miqrasiya Təşkilatının ölkəmizdə fəaliyyətə başlamasından sonra həyata keçirdiyi layihələri prioritet layihələr kimi dəyərləndirən Baş nazirin müavini Əli Həsənov onu da diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində Azərbaycanın iqtisadi inkişafı, ölkəmizdə həyata keçirilən irimiqyaslı beynəlxalq layihələr, yeni iş yerlərinin yaradılması, vətəndaşlarımızın, ölkədəki qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və bu sahədə görülən işlərin oxşar problemlə üzləşən ölkələr üçün nümunə kimi dəyərləndirilməsi miqrantları da özünə cəlb edir. Bütün bunlar isə onların sayının artmasına gətirib çıxardığından bu təşkilatla hələ əməkdaşlığın, prioritet istiqamətlər üzrə layihələrin davam etdirilməsinə ehtiyac duyulur.

Əli Həsənov, həmçinin ölkəmizin miqrasiya sahəsinə xüsusi diqqət yetirdiyini vurğulayıb və miqrasiya proseslərini tənzimləmək məqsədilə yaradılmış Dövlət Miqrasiya Xidmətinin fəaliyyətini qeyd edib.

Görüşdə vurğulanıb ki, Azərbaycan hökuməti Beynəlxalq Miqrasiya təşkilatı ilə miqrasiya və sərhəd idarəçiliyi üzrə potensialın gücləndirilməsi, insan alverinə qarşı mübarizə və kənd yerlərində kəhrizlərin bərpası vasitəsilə su təchizatının və həyat şəraitinin yaxşılaşdırılması sahəsində çox böyük əməkdaşlıq edib. Bütün bunlarla yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, bu münaqişə nəticəsində yaranmış 1 milyon 200 mindən çox qaçqın və məcburi köçkün problemi, həmin problemin həlli yolları ilə bağlı görülən işlər barədə də qonağa hərtərəfli məlumat verən Əli Həsənov bildirib ki, nüfuzlu beynəlxalq qurumların münaqişənin həllinə dair qəbul etdikləri qətnamələrin hələ də yerinə yetirilməməsi, beynəlxalq güclərin münaqişənin həllinə ikili standartlarla yanaşmaları bir daha sübut edir ki, bunlar antidemokratikdir. Bu gün dünyada münaqişələrin heç birinin həll edilməməsinə toxunan Baş nazirin müavini deyib: “Qaçqın, miqrant, məcburi köçkün problemi dünyada həmişə olub. İkinci Dünya müharibəsindən sonra münaqişələrin sayı artdıqca qaçqın və miqrantların sayı da artmağa başladı. Son 50 ildə dünyada hansı problem həll olunub? İraqda, Əfqanıstanda, Liviyada, Misirdə guya diktatura rejimini dəyişdilər. Bu ölkələrdə vəziyyət xalqın xeyrinəmi dəyişdi? Hər gün yüzlərlə insan ölür. Bunlar dünyada hegemon dövlətlərin torpaq, təbii sərvətlər əldə etmek və nüfuz dairələrinin genişləndirmək kimi cəhdlərinin nəticəsidir. Ancaq hesab edirəm ki, dünyada bu ədalətsizliklər daim davam edə bilməz. Biz isə sizinlə yaranmış problemin humanitar tərəfi ilə məşğuluq”.

Baş nazirin müavini bildirib ki, bu gün 550 milyon nəfər əhalisi olan Avropa ölkələri 800 min qaçqın problemi qarşısında aciz qalıb. Lakin 10 milyona yaxın əhalisi olan Azərbaycan ölkə Prezidenti İlham Əliyevin uğurlu siyasəti nəticəsində onilliklərdən bəri 1,2 milyon qaçqın və məcburi köçkünlə bağlı problemlərin öhdəsindən gəlir. Azərbaycana səfər edən nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri Prezidentin fəaliyyəti nəticəsində ölkəmizin bu sahədə əldə etdiyi nailiyyətləri bütün dünyaya nümunə göstərirlər.

Əli Həsənov, həmçinin vurğulayıb ki, bu gün Azərbaycan Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində sürətlə inkişaf edib və dünyanın nüfuzlu ölkələrindən birinə çevrilib. Müxtəlif xalqların və millətlərin mehriban şəraitdə yaşadığı Azərbaycandakı mövcud tolerantlıq dünyaya nümunə göstərilir. Azərbaycan artıq mötəbər beynəlxalq tədbirləri, o cümlədən idman oyunlarının keçirildiyi bir məkana çevrilib. Bu cür tədbirlərin keçirilməsi ölkəmizin beynəlxalq aləmdə daha yaxından tanınması üçün gözəl imkanlar yaradır.

Ətraflı məlumata, BMqT-nin fəaliyyətinə verdiyi qiymətə görə minnətdarlığını bildirən xanım Argentina Szabados bu gün Azərbaycanın ərazisinin 20 faizinin işğal altında olmasına, bir milyondan çox vətəndaşının qaçqın və məcburi köçkün şəraitində yaşamasına baxmayaraq, ölkəmizin böyük uğurlara imza atdığını vurğulayıb, bütün bunlardan məmnunluğunu ifadə edib, Azərbaycan hökuməti ilə əməkdaşlığa böyük önəm verdiklərini bildirib.

Xanım Argentina Szabados Azərbaycanda yaradılmış miqrasiya idarəçiliyi modelini çox bəyəndiyini və onun digər ölkələr üçün nümunə ola biləcəyini qeyd edib. O, Azərbaycanın tolerant ölkə olmasını vurğulayaraq, əcnəbilərin hüquqlarının qorunması sahəsində görülən işlərin təqdirəlayiq olduğunu, ölkəmizdə beynəlxalq təşkilatların fəaliyyəti üçün tam şəffaf və lazımi şərait yaradıldığını və onların vahid mərkəzdən uğurla idarə edildiyini diqqətə çatdırıb. O, Beynəlxalq Miqrasiya Təşkilatı və Azərbaycan Respublikası arasında əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyini vurğulayıb.

Qonaq, həmçinin Azərbaycan Prezidentinin birbaşa qayğısı ilə qaçqın və məcburi köçkünlər üçün yaradılmış şəraiti yüksək qiymətləndirib. O, ümidvar olduğunu bildirib ki, ölkəmizə səfəri beynəlxalq qurumla Azərbaycan arasında əməkdaşlığın inkişafına yeni töhfələr verəcək.

## Monakonun “ARTHOUSE” jurnalı istedadlı gənc rəssam Aida Mahmudova haqqında yazır

*Monakoda nəşr olunan məşhur “ARTHOUSE” jurnalında istedadlı gənc rəssam Aida Mahmudova haqqında məlumat dərc edilib. Məlumatda gənc rəssamın bəzi əsərləri də yer alıb.*


АИДА МАХМУДОВА



Yazıda Aida Mahmudovanın London Sent-Martin İncəsənət və Dizayn Kollecini bitirdiyi qeyd olunur. Rəssamın fəaliyyət dairəsinin geniş olduğu diqqətə çatdırılır. Onun bir çox instalyasiyaların, skulpturaların, foto və tabloların müəllifi olduğu vurğulanır. Bildirilir ki, rəssam üçün başlıca yaradıcılıq ilhamı mənbəyi sanki keçmiş haqqında xatirələrdir. Aida Mahmudovanın hər əsəri doğma şəhəri Bakıya sanki zərif nostalji hissi ilə işlənir. Göz önündə daim dəyişən şəhər mövzusu da rəssamın yaradıcılığında öz yerini tutur, məhz bu mövzu paytaxtın inkişaf edən şəhər peyzajı perspektivini müəyyən edir. Artıq zəngin sərgi təcrübəsi olan Aida Mahmudovanın əsərlərinin 56-cı Venesiya Biennalesində “Vita Vitale” qrup sərgisində nümayiş etdirildiyi diqqətə çatdırılır.

Bildirilir ki, istedadlı rəssamın heykəltəraşlıq instalyasiyaları və tabloları Londonda “Here Today”, 55-ci Venesiya Biennalesində “Love Me, Love Me Not”, “Fly to Baku”, Parisdə, Berlində, Moskvada, Romada keçirilən beynəlxalq sərgilərdə, eləcə də Bakıda Müasir İncəsənət Muzeyində (“Birləşən körpülər” - “Merging Bridges”) nümayiş etdirilib.

Gənc rəssamın sonuncu fərdi sərgisi “Elysium”un böyük əks-səda doğurduğu diqqətə çatdırılır, bu sərgidə onun əsrarəngiz botanika bağı mühitini yaratdığı bildirilir. Aida Mahmudovanın YARAT Müasir İncəsənət Məkanının təsisçisi və bədii rəhbəri olduğu, milli incəsənəti ölkə daxilində və beynəlxalq səviyyədə təbliğ etdiyi barədə oxuculara məlumat verilir. Yazı jurnalın elektron variantında da yayılıb.

Jurnalda, həmçinin gənc rəssam Niyaz Nəcəfovla müsahibə dərc olunub.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri**
**Paris**

## Dövlət Neft Fondu 28 banka 50 milyon dollar satıb

İyulun 28-də Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) tərəfindən 50 milyon ABŞ dolları məbləğində vəsait hərraca çıxarılıb. ARDNF-in ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, vəsait 28 banka satılıb. İl ərzində ARDNF tərəfindən hərraclar vasitəsilə valyuta satışı davam etdiriləcək.

# "Konstitusiyaya təklif olunan dəyişikliklər siyasi sistemin və idarəetmənin təkmilləşdirilməsi məqsədini daşıyır"

*Baş nazirin müavini, YAP-ın Sədr müavini-İcra katibi Əli Əhmədovun"Azərbaycan" qəzetinə müsahibəsi*

***- Əli müəllim, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin təşəbbüsü ilə konstitusiyada bir sıra dəyişikliklərin edilməsi məqsədi ilə Referendum keçirilməsi nəzərdə tutulur. Sanki bir az qəfil oldu. Bu barədə nə deyə bilərsiniz?***



## "Prezident İlham Əliyevin hərtərəfli və dərin islahatlar strategiyası artıq həlledici mərhələyə daxil olub"

- Mən Sizin müşahidənizi tam qəbul edə bilmərəm. Zahirən, ola bilsin ki, gözlənilməz və qəfil addım effekti bağışlayır. Lakin müşahidələrimizi son dövrlərin prosesləri kontekstində dərinləşdirməyə çalışsaq, başqa qənaətə gəlmək zorunda qalacağıq. Məlumunuz olduğu kimi, Prezident İlham Əliyev hələ ötən ilin oktyabrında Nazirlər Kabinetinin iclasında ölkədə əsaslı islahatların aparılması zərurətini bir vəzifə olaraq qarşıya qoymuşdur. Artıq xeyli müddətdir ki, əsasən, iqtisadi sahəni əhatə etsə də, geniş islahatlar həyata keçirilməkdədir. Ən ümumi şəkildə bu islahatların köklü əsasları həm Azərbaycanda, həm də bölgədə və bütünlüklə dünyada baş verən dəyişikliklərdə axtarılmalıdır.

Son 10 illik dövr Azərbaycanın həyatında fundamental dəyişikliklərlə, inkişaf və yüksəlişlə, müasirləşmə və modernləşmə ilə müşayiət olunub. Ölkə iqtisadiyyatının həcmi dəfələrlə artıb, sərmayə yatırımı axını güclənib, iqtisadi inteqrasiya prosesi dərinləşib. Azərbaycan Cənubi Qafqazın ən güclü iqtisadiyyatına çevrilib, dünya iqtisadiyyatında yeri və rolu əhəmiyyətli dərəcədə yüksəlib. Xüsusilə, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində ölkəmizin əhəmiyyəti xeyli artıb, onun etibarlı tərəfdaş imici möhkəmlənib. Bir sözlə, Azərbaycan iqtisadiyyatı bütünlüklə yeni parametrlər kəsb edərək, dünya iqtisadiyyatının ayrılmaz bir parçasına çevrilə bilmişdir.

İqtisadi inkişafın dinamikasının yetərincə yüksəkliyi, aydındır ki, çox çevik, inkişafın yaratdığı dəyişiklikləri qavramağa və adekvat reaksiya verməyə qadir olan mükəmməl iqtisadi idarəçilik mexanizminin olmasını şərtləndirir. Etiraf etmək lazımdır ki, bəzi hallarda dediyimiz ahəngdarlığı təmin etmək çətin olurdu. Səbəb heç də iqtisadi idarəçilik mexanizminin yaritmaz olmasında deyil. Başlıca amil inkişafın tempinin yetərincə yüksək olmasında özünü göstərir. Əldə olunmuş iqtisadi yüksəlişin davamlılığının təmin edilməsi, yeni çağırışların vaxtında dəyərləndirilməsi və qabaqlayıcı addımların atılmasını mümkünləşdirən çevikliyin təmin edilməsi qaçılmaz zərurətə çevrilib. Prezident İlham Əliyevin dərin iqtisadi islahatlar konsepsiyasını şərtləndirən daxili iqtisadi amillər, ilk növbədə bunlarla əlaqədardır. Artıq deyə bilərik ki, Prezident İlham Əliyevin hərtərəfli və dərin islahatlar strategiyası həlledici mərhələsinə daxil olub.

Ölkəmizdə həyata keçirilən islahatları şərtləndirən səbəblərdən söhbət açarkən, xarici iqtisadi amillər də diqqətdən qaçırıla bilməz. Azərbaycanda əzəmətli iqtisadi, əgər belə demək mümkündürsə, intibahın müşahidə olunduğu dövrdə dünyanın iqtisadi durumunda müxtəlif istiqamətli proseslərin dinamikası hiss olunan, bir çox hallarda isə narahatlıq doğuran dərəcədə yüksəlməyə başlayıb. Söhbət həm neftin qiymətlərinin kəskin sürətlə aşağı düşməsindən, həm uzunsürən maliyyə-iqtisadi böhranından, həm də iqtisadi proseslərin proqnozlaşdırıla bilməyən mərhələyə daxil olmasından gedir. Mövcud iqtisadi reallıqlar, ölkələr arasında iqtisadi uçurumun dərinləşməsinin daha da sürətlənməsi təkcə iqtisadi faktor olmaqdan çıxaraq siyasi məna qəbul etmiş, bütün dünyada sabitliyin və təhlükəsizliyin pozulmasına rəvac vermişdir. Afrikanın şimalında və Yaxın Şərqdə baş verən inqilablar və savaşlar, dəhşətli miqyaslar almış beynəlxalq terrorizm, Avropaya axan böyük insan köçü, humanitar fəlakətlər və kütləvi insan faciələri dünyanın mənzərəsini dərindən və yəqin ki, birdəfəlik dəyişib. Başa düşmək çətin deyil ki, sadalanan dünya problemləri, bütün dövlətlər kimi, Azərbaycanın qarşısında da ciddi çağırışlar irəli sürür. Dünya birliyinin bir parçası olan, dünya iqtisadiyyatına inteqrasiya edən ölkəmiz o proseslərin təsirindən sığortalanmayıb. Nəzərə alınmalıdır ki, Azərbaycan bəşəriyyətin nizamını pozan, ciddi təlatümlərlə müşayiət olunan bəhs etdiyimiz hadisələrin cərəyan etdiyi coğrafiyadan çox da uzaqda deyil.

Beləliklə, həm daxili, həm də beynəlxalq aləmdə səbəblər toplusu geniş və əhatəli islahatların aparılmasını zərurətə çevirib. Bu islahatların keçirilməməsi, hətta gecikməyə yol verilməsi ölkəmizin daha ciddi çağırışlarla üz-üzə qalmasına gətirib çıxara bilər.

Sübut etməyə belə bir ehtiyac yoxdur ki, dərin iqtisadi islahatlar siyasi sistemin müvafiq şəkildə təkmilləşdirilməsini, sadəcə olaraq, qaçılmaz edir. Əks-halda həyata keçirilən iqtisadi islahatlar yarımçıqlıq kompleksindən xilas ola bilməyəcək. Çevik, müasir və inkişafın keyfiyyətcə yeni mərhələsinə keçidi hədəfə alan iqtisadi idarəçilik mexanizminin yaradılması təbii olaraq siyasi sistemin təkmilləşdirilməsini mühüm şərt olaraq irəli sürür. Prezident İlham Əliyevin konstitusiyada bəzi dəyişikliklərin edilməsi ilə əlaqədar Referendum keçirilməsi təşəbbüsü buradan qaynaqlanır və mən bu təşəbbüsü böyük hədəflərə yönəlmiş və vaxtında atılmış addım hesab edirəm. Əsas niyyət milli, dövlət maraqlarının qorunması, reallaşması üçün müasir iqtisadi və siyasi mexanizmlərin təmin edilməsidir. Bir sözlə, konstitusiya dəyişiklikləri təklifi siyasi sistemin və idarəetmənin təkmilləşdirilməsi məqsədini daşıyır.

***- Referenduma çıxarılan təkliflərin məzmunu barədə nə deyə bilərsiniz? Konstitusiyanın bir çox maddələri üzrə dəyişiklik edilməsi nəzərdə tutulur. Ümumi niyyəti göstərdiniz. Konkret hədəflər nədən ibarətdir?***

- Təklif edilən Referendum Aktında Azərbaycan Respublikasının Konstitusiyasının 23 maddəsində dəyişiklik edilməsi, eyni zamanda, 6 maddənin əlavə edilməsi nəzərdə tutulur. Onları dörd qrupda birləşdirmək mümkündür:

1) insan hüquq və azadlıqlarının qorunması mexanizminin təkmilləşdirilməsi

2) siyasi idarəçilik təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi

3) dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələrin imzalanması rejiminin təkmilləşdirilməsi

4) insan hüquq və azadlıqlarının qorunmasında bələdiyyələrin məsuliyyətinin artırılması.

Onu da qeyd etməyi vacib hesab edirəm ki, təklif olunan 23 dəyişikliyin 16-sı, yəni dörddən üçü insan hüquq və azadlıqlarının qorunması mexanizminin təkmilləşdirilməsi ilə əlaqədardır. Hesab edirəm ki, təkcə bu fakt özü-özlüyündə konstitusiyaya bəzi dəyişikliklərlə əlaqədar irəli sürülmüş təşəbbüsün mahiyyətini və mənasını dəqiq ifadə edir.

Azərbaycanın Konstitusiyasında insan hüquq və azadlıqları geniş təsbit edilmişdir. Lakin həyatımızda baş verən pozitiv dəyişikliklər, vətəndaşların iqtisadi, sosial və siyasi proseslərdə iştirak əmsalının əhəmiyyətli dərəcədə artması həyatımızın real parametrinə çevrilib. Son illərdə insanların ictimai həyatda iştirakçılığının artırılması yönündə ciddi addımlar atılmış, hüquq və azadlıqlar sferasının genişlənməsi və qorunması mexanizminin təkmilləşməsi daxili siyasətin prioritetlərindən biri kimi qəbul edilmişdir. Azərbaycanda insan hüquq və azadlıqları sistemi Avropa standartlarına daha çox uyğunlaşdırılmışdır. Bütün bu dəyişikliklərin konstitusiyada əks olunması, hesab edirəm ki, tamamilə təbii və başadüşüləndir.

Konstitusiyaya dəyişikliklərin müəyyən hissəsi insanların iqtisadi hüquqları ilə əlaqədardır. Azərbaycan azad iqtisadi münasibətlərin formalaşması və oturuşmuş sistemə çevrilməsi yolunda əhəmiyyətli məsafəni artıq qət etmişdir. İrəli sürülən təkliflər iqtisadi azadlıqlar sisteminin yeni inkişaf mexanizminə çevrilməsi niyyətini əks etdirir.

Eyni fikirləri siyasi azadlıqlar sahəsinə aid olan dəyişikliklərə şamil etmək mümkündür. Ölkəmiz demokratiyanın oturuşması yönündə iradəsini daim ortaya qoymuş, demokratiyanın təkmilləşməsi həmişə diqqət mərkəzində saxlanılmışdır. İndi Azərbaycanda demokratiya konstitusiyanın ümumxalq səsverməsi yolu ilə qəbul olunduğu 1995-ci illə müqayisədə daha kamil təsisatdır. Lakin unudulmamalıdır ki, demokratiyanın inkişaf tarixi onun fasiləsiz bir proses olduğunu sübuta yetirmişdir. Bu gün dünyanın ən demokratik ölkələri sayılan dövlətlərdə belə insan hüquq və azadlıqlarının daha da inkişaf etdirilməsi proses olaraq müşahidə olunmaqdadır. Konstitusiya Aktında passiv seçki hüququ üçün müəyyən edilmiş aşağı yaş həddinin aktiv seçki hüququ üçün təyin olunan yaş həddi ilə eyniləşdirilməsi, məhz bu kontekstdə dəyərləndirilməlidir.

Etiraf etmək lazımdır ki, insan hüquq və azadlıqları fəlsəfəsi prizmasından yanaşıldıqda, seçki hüququnun müxtəlif formalarda istənilən məhdudlaşdırılması demokratik düşüncəyə mahiyyətcə ziddir. Ancaq burada aşağı yaş həddinin ağlabatan formada məhdudlaşdırılması, sadəcə, qaçılmazdır. Bu da insanın siyasi və ictimai həyatda iştiraka hazır olması baxımından optimal yaş həddinin müəyyən edilməsi ilə bağlıdır. Bundan kənarda istənilən məhdudlaşdırma həm təbiilik, həm də ağlabatanlıq mənasını itirmiş olur. Bəzi hallarda isə siyasi iştirakçılıq imkanının yaş həddi ilə məhdudlaşdırılması sırf siyasi mülahizələrdən irəli gəlir. Azərbaycanın müasir tarixində buna ibrətamiz nümunə mövcuddur. Ötən əsrin 90-cı illərinin əvvəllərində Ümummilli Lider Heydər Əliyevin siyasi proseslərdə iştirakını əngəlləmək məqsədilə prezidentliyə namizədlər üçün 65 yaşdan ibarət yuxarı yaş həddi müəyyən edilmişdi. Əlbəttə, bu qərar hər cür ağlabatanlıq ünsürlərindən məhrum idi və müstəsna olaraq Heydər Əliyevə qarşı çevrilmişdi. Əgər bu mürtəce qərar vaxtında aradan qaldırılmasaydı, Azərbaycanı onu gözləyən acı taledən xilas etmək mümkün olmayacaqdı. Həyat sırf siyasi mülahizələrlə qəbul edilmiş həmin qərarın nə qədər mürtəce xarakter daşıdığını göstərməklə yanaşı, siyasi iştirakçılığın yuxarı yaş həddi ilə məhdudlaşdırılmasının mahiyyət etibarı ilə antidemokratik addım olduğunu sübuta yetirdi. Mənim fikrimcə, siyasi iştirakçılıq baxımından ağlabatanlıq mülahizələri çərçivəsindən kənarda istənilən məhdudlaşdırıcı normalar, o cümlədən yaş məhdudiyyətlərinin qoyulması ədalətli sayila bilməz. Çünki o, həm fərdin hüquq və azadlığının məhdudlaşdırılmasına səbəb olur, həm də xalqın, seçicilərin seçmək hüququna müdaxilə edir. Əgər xalqın iradəsini, onun seçmək hüququnu demokratiyanın fundamental prinsipi sayırıqsa, onda etiraf etmək zorundayıq ki, ağlabatanlıq mülahizələrindən kənarda istənilən məhdudlaşdırıcı norma yuxarıda qeyd olunan dəyərlərə qarşı çevrilib.

İrəli sürülən tezisdən çıxış etsək, onun əksi olan tezis isə istənilən halda qeyri-demokratik olub, insan hüquq və azadlıqları fəlsəfəsi ilə ziddiyət təşkil edir, haqqında söhbət etdiyimiz Konstitusiya Aktında passiv seçki hüququ baxımından aşağı yaş həddinin 18 yaş müəyyənləşdirilməsini mütərəqqi təklif kimi qiymətləndirməkdən savayı ədalətli yol qalmır. Söhbət seçmək və seçilmək hüququnun yaş həddinin məhdudlaşdırılmasını mümkün olan qədər aradan qaldırmaqdan gedir. Razılaşmamaq mümkün deyildir ki, insan hüquq və azadlıqları sahəsində hər hansı məhdudiyyətin aradan qaldırılması, əgər o başqalarının hüquq və azadlıqlarına təhlükə yaratmırsa və ağlabatanlıq mühalizəsi çərçivəsindən kənara çıxmırsa, mahiyyətcə mütərəqqi xarakter daşıyır və hüquq və azadlıqlar sferasının daha da genişlənməsinə xidmət göstərir.

Ardı Səh. 5

# "Konstitusiyaya təklif olunan dəyişikliklər siyasi sistemin və idarəetmənin təkmilləşdirilməsi məqsədini daşıyır"

*Baş nazirin müavini, YAP-ın Sədr müavini-İcra katibi Əli Əhmədovun "Azərbaycan" qəzetinə müsahibəsi*

Əvvəli Səh. 4

Aktiv seçki hüququ səviyyəsində müəyyənləşdirilmiş seçilmək hüququnun opimallığı məsələsinə gəldikdə isə, bir sıra vacib cəhətlərin mütləq şəkildə nəzərə alınması gərəkdir. Əvvəla, Azərbaycan haqqında söhbət gedən məhdudiyyəti aradan qaldıran yeganə ölkə deyildir. Sizinlə söhbət zamanı xatırlamağa çalışdım və səhv etmirəmsə, Fransada prezident seçilmək üçün yaş senzi adlanan məhdudiyyət mövcud deyildir. Burada seçilmək hüququ seçmək hüququ olan bütün vətəndaşlara şamil edilir. Əlbəttə, bu cür normanı qəbul etmiş digər ölkələr də var və mən onların hamısını sadalamaq fikrində deyiləm.

İkincisi, seçmək və seçilmək hüququnun yaş həddi baxımından eyniləşdirilməsi heç də 18 yaşda vətəndaşların mütləq olaraq Milli Məclisə üzv və ya prezident seçilməsi anlamına gəlmir. Söhbət konstitusion seçilmək hüququnun demokratik təminatından gedir. Konkret olaraq, hansı yaşda olan iddiaçının Milli Məclisin üzvü və ya ölkə prezidenti seçilməsi məsələsinin həlli seçicilərin rəyindən asılıdır. Fikrimin təsdiqi olaraq bir faktı nümunə gətirmək istərdim. Ölkələrin çoxunda prezident seçilmək üçün aşağı yaş həddi 35-dir. Lakin həmin ölkələrdə kiminsə 35 yaşında prezident vəzifəsinə seçildiyini xatırlaya bilmirəm. Məsələnin nəzərə alınması çox vacib olan bir cəhətini unutmamağınız gərəkdir. Hüququn təsbit olunması ondan hər bir iddiaçının istifadə edə bilməsi demək deyildir. Bununla əlaqədar digər şərtlər də yerinə yetirilməlidir.

Seçilmək hüququna gəldikdə, əlbəttə, əsas amil kimin iddiaçı olması deyil, seçicinin rəyidir. Hər hansı bir iddiaçının Milli Məclisin üzvü və prezident seçilməsinə əsas verən təkcə onun müəyyən edilmiş yaş həddi tələblərinə cavab verməsi deyil, həm də insanların ona səs verməsi üçün yetərli nüfuza, hörmətə, təcrübəyə, xalq və dövlət qarşısında xidmətlərə malik olmasıdır. Bunları qazanmaq üçün isə bəzən heç 10-15 il kifayət etmir. Belə olan halda ağlabatan yaş həddində müəyyən edilmiş seçilmək hüququ heç bir təhlükə mənbəyi olmadan, artıq qeyd edildiyi kimi, həm hüquq və azadlıqlar sferasını, həm də xalqın seçim imkanlarını genişləndirir.

Üçüncü bir məqam da var ki, onu da göz ardına almaq düzgün olmazdı. Müxtəlif dövrlərdə ayrı-ayrı xalqların tarixində çox gənc yaşlarında qeyri-adi istedadlı tarixi şəxsiyyətlərin yetişdiyi heç kimə sirr deyil. Bu cür şəxsiyyətlər elmdə və mədəniyyətdə olduğu kimi, siyasət sahəsində də olmuşdur. Etiraf etməliyik ki, həmin tarixi şəxsiyyətlər bəşəriyyətin inkişafına müstəsna töhfələr verib. Yadıma qədim tarixdən Makedoniyalı İsgəndər, orta əsrlərdən Şah İsmayıl Xətai, yeni tarixdən Napoleon düşür. Hər üçü çox gənc yaşlarında dövlətin başında durub, misilsiz xariqələr göstərib. Şah İsmayıl Xətai 14 yaşında, Makedoniyalı İsgəndər 20 yaşında, Napoleon da ondan azacıq artıq yaşda dövlət başına keçiblər. Bəşəriyyətin tarixini onlarsız təsəvvür etmək, sadəcə, mümkün deyildir.

Deməli, nəinki dövlət başçısı seçilmək, həm də böyük tarixi şəxsiyyət kimi özünü təsdiq etmək üçün, əslində, yaş həddi anlayışı yoxdur. Ona görə də prezidentliyə namizədlərdən tələb olunan yaş həddi minimumunun 35 yaşdan seçki hüququnun təsbit edildiyi yaş həddi ilə eyniləşdirilməsində qeyri-adi nəsə axtarmaqda bir məna görmürəm.

***- Vətəndaşların və siyasi təhlilçilərin diqqətini cəlb edən digər bir məsələyə münasibət bildirməyinizi də xahiş edərdim. Bu da təklif olunan vitse-prezidentlik vəzifəsi ilə əlaqədardır. Bu vəzifənin, daha doğrusu, vitse-prezidentlər vəzifələrinin təsis edilməsi Azərbaycanın siyasi sistemində və idarəçilik praktikasında nəyi dəyişəcək?***

- Əvvəla, ondan başlamaq istərdim ki, müasir dünyada siyasi sistemlərin bir neçə növü olmasına baxmayaraq, biri digərini təkrarlayan iki dövlət idarəçiliyi sistemi tapmaq, demək olar ki, mümkün deyil. Nə qədər dövlət var, o qədər də idarəçilik formaları və sistemləri mövcuddur. Oxşarlıq yalnız növ mənsubiyyəti çərçivəsində mümkündür. Bu və ya digər siyasi sistem növü çərçivəsində hər bir xalq öz tarixinə, dünyagörüşünə, siyasi qüvvələrin nisbətinə, geopolitik şəraitinə, toplumun siyasi temperamentinə və s. amillərə uyğun olaraq konkret idarəçilik formasını seçir. Bu, hər bir xalqın müstəsna hüququdur. Ona görə də biz Azərbaycanın, yaxud başqa bir dövlətin idarəçilik sistemini digərləri ilə yalnız şərti olaraq müqayisə edə bilərik. İki xalqı müqayisə etmək nə qədər düzgündürsə, iki dövləti də müqayisə etmək o qədər düzgündür. Mən bu fikirləri ona görə səsləndirirəm ki, müxtəlif çevrələrdə istər-istəməz müqayisələr aparmaq həvəskarları meydana çıxacaq.

Vitse-prezidentlər institutunun təsis edilməsi məsələsinə gəldikdə isə, onu demək istəyirəm ki, prezident üsul-idarəsinin tez-tez rast gəlinən fərqləndirici xüsusiyyətlərindən biri, məhz onunla əlaqədardır. Ancaq heç də bütün prezident respublikalarında vitse-prezident təsisatı mövcud deyil.

Vitse-prezidentlik təsisatı ayrı-ayrı ölkələrdə müxtəlif mülahizələrlə əlaqədar yaradılır. Onun, xüsusilə 3 əsas funksiyasını fərqləndirmək olar.

a) siyasi qüvvələrin və ya elektoratın konsolidasiyası;

b) prezidentin öz səlahiyyətlərini icra etmədiyi dövrdə hakimiyyətin yenidən formalaşdırmasının təmin edilməsi;

c) hakimiyyət bölgüsünün optimallaşması və demokratik nəzarət mexanizminin təmin edilməsi (ABŞ vitse-prezidenti Senata sədrlik edir).

Düşünürəm ki, sualınızla əlaqədar dediklərim problemin mahiyyətinin qavranılmasında açar rolunu oynaya bilər. Heç şübhəsiz, yeni təsisatın yaradılması ölkədə idarəçilik sistemində anonsu Prezident tərəfindən edilmiş dəyişikliklərin ümumi məntiqindən irəli gəlir. Həyat idarəçilik sisteminin təkmilləşdirilməsi tələbini irəli sürmüşdür və bu dəyişikliklərin müəyyən qismi konstitusiya islahatlarını tələb edir. Konkret bu dəyişikliklərlə əlaqədar güdülən əsas məqsəd prezident üsuli-idarəsinin təkmilləşdirilməsi və müasir çağırışlara cavab verməsinin təmin edilməsidir. İnanıram ki, yeni təsisat ölkənin idarəçiliyi sistemini daha da səmərəli edəcək, ölkənin inkişafının yeni mərhələyə keçməsi ilə əlaqədar qarşıya qoyulmuş vəzifələrin icrasına müsbət təsir göstərəcək.

***- Referendumla əlaqədar Konstitusiya Aktında nəzərdə tutulan dəyişikliklərdən biri də prezidentin səlahiyyət müddətinin artırılmasıdır. Bu hansı zərurətdən irəli gəlir? Bu barədə nə deyə bilərsiniz?***

- Dünya təcrübəsində seçilmiş prezidentlərin səlahiyyət müddətləri müxtəlifdir. Ən çox rast gəlinən müddət 5-7 il arasında dəyişir. Prezidentlik səlahiyyətlərinin müddəti bir sıra səbəblə əlaqədardır. Burada ölkənin siyasi sisteminin xüsusiyyətləri, siyasi güvvələrinin strukturu, siyasi sabitliyin səviyyəsi və ona təsir göstərən amillərin məcmusu, geopolitik vəziyyət və s. cəhətlər nəzərə alınır. Eyni zamanda, prezidentin səlahiyyət müddətinin dəyişməsi adi konstitusion dəyişiklikləri norması sayıla bilər. Müxtəlif ölkələrdə prezidentin səlahiyyət müddəti ilə əlaqədar normalar dəyişdirilib. Siyasi praktikada bu, o qədər də xüsusi əhəmiyyət kəsb edən məsələlər sırasına daxil edilmir. Ona görə də prezidentin səlahiyyət muddətinin 5 ildən 7 ilə artırılması ilə əlaqədar dəyişiklik, düşünürəm ki, seçicilər tərəfindən normal qarşılanacaq.

Sözügedən dəyişikliyin motivlərinə gəldikdə isə, ilk növbədə onun ölkədə həyata keçirilməkdə olan idarəçilik islahatları kontekstində dəyərləndirilməsinin gərəkli olduğu vurğulanmalıdır. Nəzərdə tutulan idarəetmə islahatları kompleks xarakter daşıyır və onun daxili məntiqi tam dəyişikliklər dəstinin gerçəkləşdirilməsi şərtləndirir.

Qeyd etmək istədiyim ikinci məqam siyasi sistemin sabitliyi, bütövlükdə sabitlik amili ilə əlaqədardır. Konstitusiyanın 8-ci maddəsində qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir. Bu vəzifənin yerinə yetirilməsi siyasi sistemin sabit rejimdə fəaliyyət göstərməsinin təmin edilməsində Prezidentin məsuliyyət dərəcəsini artırır.

Azərbaycanın sabitliyi ilə bölgədə seçilən dövlətlərdən biri olduğunu sübut etməyə lüzum yoxdur. Ancaq o da unudula bilməz ki, ölkəmiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb edilib və son zamanlar erməni tərəfin təxribatları sabitliyə qarşı ciddi təhlükəyə çevrilib. Tez-tez dəyişikliklər, bu dəyişikliklər tam qanuni əsaslarda olsa belə, müəyyən şərtlər daxilində (müharibə şəraitində istənilən təxribat həmin şərtlər rolunu oynaya bilər) sabitliyə qarşı real təhlükəyə çevrilmək iqtidarındadır.

Eyni fikirləri xaricdən gözlənilən təhdidlərlə əlaqədar da söyləmək mümkündür. Azərbaycana yaxın bölgələrdə qarşıdurmalar, müharibələr, fəlakətlər, terrorizm və bunların nəticəsi olan kütləvi köçlər davamlı xarakter alıb. Vəziyyətin yaxın zamanlarda sabitləşəcəyini söyləmək həddindən artıq optimizm nümunəsi olardı. Müşahidə olunan münaqişələrin və onun nəticələrinin coğrafiyasının genişlənməsidir. Belə vəziyyətdə ölkəni mümkün təhlükəli təhdidlərdən sığortalamaq, sabitliyi qoruyub-saxlamaq həyati əhəmiyyət kəsb edir. Tez-tez keçirilən, cəmiyyətdə ehtirasları və siyasi ambisiyaların dərəcəsini həddən ziyadə artıran siyasi kampaniyalar, seçkilər təbii ki, belə siyasi kampaniyalardandır, sabitliyin pozulması təhlükəsini real olaraq artırır. Bununla əlaqədar elə bir optimal modelin seçilməsi ehtiyacı yaranmışdır ki, o, bir tərəfdən haqqında söhbət açdığımız sabitliyə təhlükə yaranmasına imkan verməsin, digər tərəfdən isə demokratik normalar zərər çəkməsin. Prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə artırılması, düşünürəm ki, həmin modelin yaradılması nöqteyi-nəzərindən ən yaxşı variant sayıla bilər. Nəticədə, necə deyərlər, demokratiya zərər çəkməyib (6-7 illik prezidentlik səlahiyyəti olan ölkələrin təcrübəsi ortadadır), həm də sabitliyin qorunub-saxlanması üçün əlavə təminat yaradılıb.

***- Opponentləriniz, bəzi müxalifət təmsilçiləri konstitusiyaya təklif edilən dəyişikliklərlə əlaqədar fərqli fikirlər səsləndirir, onlara neqativ münasibət sərgiləyirlər. Siz buna necə baxırsınız?***

- Açığını deyim, əgər müxalifət başqa cür davransaydı, bu, məni təəccübləndirərdi. Təcrübədən məlumdur ki, Azərbaycan müxalifətinin bir çox təmsilçiləri müxalifətçiliyi iqtidarın istənilən təşəbbüsünə qarşı çıxmaq kimi başa düşür. İqtidarın dilindən çıxan ən adi həqiqətin onlar tərəfindən yalanlanması cəhdlərinə cəmiyyətimiz adət edib. Ona görə də belə davranış norması seçmiş müxalifət təmsilçilərinin "tənqidləri" cəmiyyət tərəfindən, yumşaq şəkildə desək, soyuq qarşılanır.

Konstitusiyaya dəyişikliklər təklif etmək, Referendum təyin etmək konstitusiya ilə Azərbaycan Respublikasının Prezidentinə verilmiş səlahiyyətdir. Dünyanın hər bir yerində olduğu kimi, Prezident yetişmiş ehtiyaclara uyğun olaraq zəruri dəyişikliklər paketini cəmiyyətə təqdim edir. Təbii ki, bu zaman O, cəmiyyətin çoxluğunun və özünün düzgün saydığı dəyişikliklər konsepsiyasını hazırlayır. Hər kəs etiraf etmək zorundadır ki, bu onun müstəsna səlahiyyətidir. Hakim rolunda isə xalq çıxış edir. Prezidentin təklifləri xalq tərəfindən səs çoxluğu qazandıqdan sonra konstitusion normaya çevrilir. Bu mənada, ayrı-ayrı müxalifətçilərin təklif olunan dəyişikliklərə rəng verməyə çalışması ən azından başa düşülən deyil.

Konstitusiyaya dəyişikliklərlə əlaqədar, onların mahiyyəti barədə söhbət etdik. Təkrar etməyə ehtiyac yoxdur. Bir sıra müxalifət nümayəndələrindən fərqli olaraq cəmiyyətin böyük kəsimi, müşahidələrimə əsasən deyə bilərəm, bu dəyişiklikləri anlaşma ilə qarşılayır. Prezident İlham Əliyevə cəmiyyətimizdə böyük inamın olduğu sirr deyil. Bu inam Onun irəli sürdüyü konstitusiya dəyişikliklərinin təkliflərinə insanlarımızın düzgün yanaşmasının əsasında dayanır. Əminəm ki, nəzərdə tutulan Referendum növbəti dəfə İlham Əliyevə ümumxalq inamının nümayişinə çevriləcək.

# YAP Nərimanov rayon təşkilatı referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması ilə bağlı yığıncaq keçirib

***Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının qərargahında referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması və təşəbbüs qrupunda təmsil olunmaq üçün nümayəndələrin müəyyən edilməsi ilə bağlı yığıncaq keçirilib. Yığıncaqda YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu, YAP Nərimanov rayon təşkilatı Qadınlar Şurasının sədri Məhəbbət İbrahimova və YAP Nərimanov rayon təşkilatının fəalları iştirak ediblər.***





Tədbirdə çıxış edən YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev sentyabrın 26-da keçiriləcək referendumla bağlı məlumat verib. T.Tağıyev "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı haqqında yığıncaq iştirakçılarına məlumat verib. Bildirilib ki, Azərbaycanın 1995-ci ildə Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və ümumxalq səsverməsində qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası dünyanın ən mütərəqqi əsas qanunlarından sayılır. Müasir dünyamızın dinamik inkişafı isə hər zaman qanunların yenilənməsi zərurətini meydana çıxarır. T.Tağıyev bildirib ki, zərurət yarandığı halda belə təkmilləşdirmələr Azərbaycan Konstitusiyasında da öz əksini tapıb: "Konstitusiyaya dəyişikliklərlə bağlı Referendum Aktı layihəsinə insan hüquq və azadlıqlarının qorunması, təhlükəsizlik sisteminin möhkəmləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi və bir sıra məsələlər daxildir. Bilindiyi kimi, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə sentyabrın 26-da ölkəmizdə bu dəyişikliklərin qəbulu ilə bağlı ümumxalq səsverməsi keçiriləcək. Mən əminəm ki, Azərbaycan xalqı hər zaman olduğu kimi bu dəfə də dövlətimizin inkişafına yönələn bu təşəbbüsü dəstəkləyəcək".

"Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı layihəsi ilə bağlı geniş məruzə ilə çıxış edən "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu bildirib ki, YAP-ın fəaliyyəti hər zaman Azərbaycan xalqı tərəfindən təqdir edilir. Ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisənin baş verdiyini deyən millət vəkili Hikmət Babaoğlu Konstitusiyamıza 29 maddədə dəyişikliklərin nəzərdə tutulduğunu deyib: "Nəzərdə tutulan dəyişikliklər əsasən insan hüquq və azadlıqlarının daha da genişləndirilməsini özündə ehtiva edir, vətəndaşlara yeni hüquqlar verilir, hüququn realizə olunması ilə bağlı müəyyən məhdudiyyətlər aradan qaldırılır, eyni zamanda, hüquqdan siyasi manipulyasiya vasitəsi kimi istifadə etmək imkanları məhdudlaşdırılır. Bundan başqa, dəyişikliklərdə ölkəmizin təhlükəsizliyi ilə bağlı mühüm müddəalar öz əksini tapır. Təbii ki, hər bir xalqın və dövlətin milli təhlükəsizliyi ən prioritet məsələdir. Bu mənada, təhlükəsizliyimizin konstitusion əsaslarının yaradılması üçün əsas qanuna ediləcək dəyişikliklər olduqca böyük əhəmiyyətə malikdir. Digər bir məsələ sahibkarlıqla bağlıdır ki, bu istiqamətdə də ölkəmizdə geniş islahatlar aparılır və Konstitusiyaya ediləcək dəyişikliklər bu sahədə daha yüksək irəliləyişlərə yol açacaq. Bundan başqa, sahibkarların sosial öhdəçiliyi ilə əlaqəli maddələr də bu layihədə öz əksini tapıb ki, bu olduqca vacibdir. Bilindiyi kimi, ölkəmizdə Konstitusiyanın verdiyi hüquqa əsasən sahibkarlıq fəaliyyəti azaddır, toxunulmazdır. Bu gün artıq sahibkarların sosial öhdəçiliyi məsələsi aktuallaşıb".

Daha sonra tədbirdə çıxış edən rayon Ağsaqqallar Şurasının sədr müavini Kamil Babayev Konstitusiyaya təklif edilən dəyişikliklərin mütərəqqi xarakter daşıdığını bildirib. Sonda iclasda 66 nəfərdən ibarət təşəbbüs qrupu yaradılıb və onlardan 6 nəfəri təsis edilməsi nəzərdə tutulan "Yeni Azərbaycan" təşəbbüs qrupuna nümayəndə seçilib.

## Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2016-cı ilin avqust ayında şəhər və rayonlarda vətəndaşların qəbulu

CƏDVƏLİ

| Mərkəzi icra hakimiyyəti orqanı | Qəbul günü | Qəbulun keçirildiyi şəhər | Əhatə olunan şəhər və rayonlar |
|---|---|---|---|
| **Ramin Quluzadə**<br>**Rabitə və yüksək texnologiyalar naziri** | 05 | Gəncə | Gəncə, Naftalan, Goranboy, Samux, Daşkəsən, Göygöl, Kəlbəcər |
| **Məleykə Abbaszadə**<br>**Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Direktorlar Şurasının sədri** | 05 | Yevlax | Yevlax, Mingəçevir, Naftalan, Ağdaş, Goranboy |
| **Şahin Mustafayev**<br>**İqtisadiyyat naziri** | 12 | Daşkəsən | Daşkəsən, Gəncə, Göygöl |
| **Ziya Məmmədov**<br>**Nəqliyyat naziri** | 12 | Ağstafa | Ağstafa, Qazax, Tovuz |
| **Arzu Rəhimov**<br>**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** | 18 | Goranboy | Goranboy, Gəncə, Mingəçevir, Samux, Göygöl, Daşkəsən |
| **Əbülfəs Qarayev**<br>**Mədəniyyət və turizm naziri** | 19 | Şəki | Şəki, Oğuz, Qax, Zaqatala, Balakən |
| **Fikrət Məmmədov**<br>**Ədliyyə naziri** | 22 | Göygöl | Göygöl, Samux, Goranboy |
| **Kəmaləddin Heydərov**<br>**Fövqəladə hallar naziri** | 25 | Şəki | Şəki, Oğuz, Qax, Zaqatala, Balakən |
| **Zakir Qaralov**<br>**Baş prokuror** | 26 | Balakən | Balakən, Şəki, Zaqatala, Qax, Oğuz, Qəbələ |
| **Hüseynqulu Bağırov**<br>**Ekologiya və təbii sərvətlər naziri** | 26 | Ağdaş | Ağdaş, Mingəçevir, Naftalan, Yevlax, Goranboy |
| **Azad Rəhimov**<br>**Gənclər və idman naziri** | 26 | Quba | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən |
| **Heydər Əsədov**<br>**Kənd təsərrüfatı naziri** | 26 | Siyəzən | Siyəzən, Şabran, Xaçmaz, Quba, Qusar |
| **Oqtay Şirəliyev**<br>**Səhiyyə naziri** | 26 | Şabran | Şabran, Siyəzən, Xızı, Xaçmaz, Quba, Qusar |
| **Aydın Əliyev**<br>**Dövlət Gömrük Komitəsinin sədri** | 26 | Goranboy | Goranboy, Naftalan, Bərdə, Tərtər |
| **Kərəm Həsənov**<br>**Əmlak Məsələləri Dövlət Komitəsinin sədri** | 26 | Naftalan | Naftalan, Goranboy, Bərdə, Ağdam, Tərtər, Xocavənd, Laçın |
| **Ramil Usubov**<br>**Daxili işlər naziri** | 27 | Şəki | Şəki, Qax, Zaqatala, Balakən, Oğuz, Qəbələ |
| **Mikayıl Cabbarov**<br>**Təhsil naziri** | 29 | Naftalan | Naftalan, Gəncə, Göygöl, Samux, Daşkəsən, Goranboy |
| **Hicran Hüseynova**<br>**Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədri** | 29 | İsmayıllı | İsmayıllı, Qəbələ, Ağsu, Şamaxı, Qobustan |
| **Səlim Müslümov**<br>**Əmək və əhalinin sosial müdafiəsi naziri** | 30 | Daşkəsən | Daşkəsən, Gəncə, Samux, Göygöl, Kəlbəcər |
| **Mübariz Qurbanlı**<br>**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** | 31 | Qazax | Qazax, Ağstafa, Tovuz |

Qeyd: Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanının səlahiyyətlərinə aid olmalıdır.

## Vergi orqanlarına müraciətlərin 75 faizi müsbət həll olunub




***2016-cı ilin 1-ci yarım ilində vergi orqanlarına 48 min 653 müraciət daxil olub. Onlardan 96,9 faizi ərizə, 2,9 faiz şikayət, 0,2 faizi təklifdir.***

Vergilər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müraciətlərin 50,7 faizi müxtəlif arayışların alınması, 20,8 faizi kameral vergi yoxlamaları, 7,6 faizi vergi borcları, 1,9 faizi səyyar vergi yoxlamaları, 1,9 faizi vergidən yayınma və dividendlərin verilməsi, 0,3 faizi operativ vergi nəzarəti tədbirləri, 0,4 faizi vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,4 faizi qanunsuz sahibkarlıq fəaliyyəti, 0,1 faizi korrupsiya hüquqpozmaları, 13,5 faizi digər məsələlərlə bağlıdır.

Bütün müraciətlərə vaxtında baxılıb, onların 75 faizi müsbət həll olunub. Hesabat dövründə vergi orqanlarına daxil olmuş şikayətlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 21,1 faizi azalıb.

Hesabat dövründə vergi orqanları tərəfindən ümumilikdə 2216 vətəndaş qəbul edilərək, onlara mövcud qanunvericilik çərçivəsində lazımi kömək göstərilib və ya müvafiq izahatlar verilib. Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşların qəbulu qrafikinə əsasən vergilər naziri tərəfindən fevral ayının 25-də Oğuz, aprel ayının 29-da Neftçala, may ayının 20-də Yardımlı, iyun ayının 17-də Qusar şəhərində vətəndaşların səyyar qəbulları keçirilib, bu qəbullarda ümumilikdə 123 vətəndaş qəbul edilib.



# Erməni üsyanı: lokal xarakteri və geosiyasi riskləri

***İrəvanda üsyan hadisəsinə təəccüblənmirlər. Zatən ermənilər uzun illərdir ki, qan tökməkdən başqa işlə məşğul olmurlar. Lakin bu dəfə hədəf özləri oldu. Bir qrup radikal müxalifətçi İrəvanın ən böyük rayonu olan Erebunidəki polis alayına hücum edərək bir nəfəri öldürüb, 8 polisi girov götürdülər. Sonradan onların 3-ü azad edildi. Etirazçılar S.Sarkisyanın istefası və həbsdə olan müxalifətçi J.Səfilyanın azadlığa buraxılmasını tələb edirlər. Nəticəsindən asılı olmayaraq bu hadisələr siyasi proses kimi maraq doğurur. Bir sıra dairələr Ermənistanda demokratiyanın mövcudluğundan, söz azadlığından, insan haqlarına əməl olunmasından ağızdolusu danışırlar. Müxaliflərin bu etirazı isə sübut edir ki, erməni əhalisinin dinc yolla siyasi fəaliyyət göstərmək imkanları minimuma bərabərdir. Müxalif qüvvələr bəyan edirlər ki, silahlı mübarizədən başqa yolları qalmayıb. Bəs söz azadlığı, siyasi fəaliyyət sərbəstliyi, demokratik idarəetmə, insan hüquqlarına əməl olunması ilə bağlı İrəvanın bəlağətli sözləri və beynəlxalq təşkilatların təntənəli hesabatları bu həqiqətin harasında yer alıb? Heç bir yerində, çünki hamısı cəfəngiyatdır. Bunu Erebuni olayı əyani şəkildə təsdiq edir. Ona geniş nəzər salaq.***

## Boğulan demokratiya: rəsmi İrəvanın və havadarların vicdanı fonunda

Ermənistanda gərginliyin artacağı gözlənilən idi. Ölkə rəhbərliyinin siyasətində ziddiyyətlər kifayət qədərdir və onların aradan qaldırılması üçün heç bir addım atılmır. Əksinə, meydana yeni-yeni problemlər çıxır. Keçən ilin dekabrında keçirilən referendum vəziyyəti daha da ağırlaşdırdı. Prezident S.Sarkisyan konstitusiyaya dəyişikliyi nəzərdə tutan həmin tədbiri dövlətçiliyi möhkəmləndirməklə əlaqələndirirdi. Onun fikrinə görə, Ermənistanda mövcud olan yarımprezident üsul-idarəsini dəyişmək, konkret olaraq parlament idarə sisteminə keçmək gərəkdir (bax: Qruppa oppoziüionerov zaxvatila polk poliüii v Erevane i trebuet otstavki vlastey Armenii / TASS, 17 iyul 2016).

Müxalifətin əksər hissəsi isə başqa cür düşünür. Onlar hesab edirlər ki, konstitusiyaya edilən dəyişiklik S.Sarkisyanın rəhbərlik etdiyi Respublika Partiyasının uzun müddət hakim vəziyyətdə olmasına xidmət edir. Bir neçə aydır ki, bu məsələ ilə bağlı müxalifətin radikal qanadı ilə hakimiyyət arasında çəkişmələr gedir. Onu demək gərəkdir ki, S.Sarkisyanın konstitusiya islahatlarına yalnız radikal müxalifət etiraz etmir. Lakin radikallar zor tətbiq etməklə hakimiyyəti dəyişməyin mümkünlüyünü irəli sürürlər.

Bu aspektdə "Yeni Ermənistan" adlanan müxalif hərəkatın lideri Jirayr Səfilyan daha sərt mövqe tutur. O əmindir ki, ölkədə vəziyyəti ancaq "silahlı üsyan" yolu ilə dəyişmək olar. Çünki S.Sarkisyan hakimiyyəti dinc yolların hamısını bağlayıb (bax: əvvəlki mənbəyə). J.Səfilyanın tərəfdarları "Təsis parlamenti" yaradaraq hakimiyyəti ələ keçirib islahatlar həyata keçirmək məqsədi güdürlər.

İyun ayının 20-də Ermənistan polisi J.Səfilyanı qanunsuz silah saxladığına və qarışıqlıq yaratmaq istədiyinə görə həbs edib. Buna etiraz olaraq iyulun 17-də səhər saatlarında "Təsis parlamenti" tərəfdarları İrəvanın Erebuni rayonunun polis alayını ələ keçiriblər. Atışma nəticəsində 1 polis həlak olub, 8 nəfər polis üsyançılar tərəfindən girov götürülüb. Onların sırasında Ermənistan polis rəisinin müavini V.Yeqiazaryan və İrəvan şəhər polis idarəsi rəisinin müavini V.Oipyan da var (bax: Zaxvat poliüeyskoqo polka v Armenii / TASS, 17 iyul 2016).

J.Səfilyanın tərəfdarları bəyanat yayıblar ki, liderləri azad olunmalı və S.Sarkisyan istefa verməlidir. Onlar müdafiə xətti qurublar. Hüquq-mühafizə orqanları isə ərazini mühasirəyə alaraq ətraf evlərdən əhalini köçürüblər (bax: V Erevane naçalasğ gvakuaüiə jiteley prileqaöhix k zdaniö poliüii domov / "rambler.ru", 17 iyul 2016).

Rusiyanın "Ria Novosti" və "İnterfax" informasiya agentliklərinin yaydıqları məlumatlara görə, hakimiyyət yaranmış vəziyyəti ciddi qəbul edir, lakin onu üsyan adlandırmır. Buna baxmayaraq, artıq 200-dən çox insanın həbs edildiyi haqqında məlumatlar yayılıb.

## Qarşıdurmadan xaosa: Ermənistan öz ampluasında

Hadisələrin necə sonuclanmasından asılı olmayaraq, yaranmış sosial-siyasi vəziyyət bir sıra aspektlərdə maraq doğurur. Hər şeydən əvvəl, etirazçıların arqumentləri diqqəti çəkir. Onlar Ermənistan hakimiyyətini rüşvətxorluqda, korrupsiya əməllərində, hakimiyyəti zəbt etməkdə və Dağlıq Qarabağda aprel ayındakı müharibədə zəiflik göstərməkdə ittiham edir, bütün bunlarda birbaşa S.Sarkisyan iqtidarını günahlandırırlar.

"Təsis parlamenti"nin üzvləri S.Sarkisyanın regionçuluq prinsipi ilə ölkəni idarə etdiyini ifadə edirlər. Kadrlar əsas olaraq həmin şərtlərə görə seçilir. Ermənistanda bu üsul-idarə o dərəcədə ağır vəziyyət formalaşdırıb ki, S.Sarkisyan və tərəfdarları özlərinə ömürlük təminat arzusuna düşüblər. Konstitusiyada dəyişiklik də məhz bu məqsədə xidmət edir.

Buradan müxaliflər belə nəticə çıxarırlar ki, Ermənistan hakimiyyəti seçki yolu ilə dəyişikliyin olması imkanlarını heçə endirib. Ölkədə faktiki olaraq diktatura rejimi qurulub. Avtoritarizm yüksək səviyyəyə qalxıb. Beynəlxalq təşkilatların Ermənistanda söz azadlığı, insan azadlığı, müxalif siyasi fəaliyyətlə real olaraq məşğul olmaq, demokratiya prinsiplərinə əməl etmək kimi gəlişigözəl sözlər işlətməsinin heç bir əsası yoxdur. Buna görədir ki, müxalifətin əlacı silahlı üsyana qalıb.

Maraqlıdır ki, rəsmi İrəvanın havadarları məsələnin bu tərəfi ilə bağlı fikir bildirmirlər. Onlar Türkiyədə Ərdoğan hakimiyyətindən bol-bol qərəzli danışır, lakin Ermənistanda baş vermiş silahlı etirazın siyasi müstəvidə qiymətləndirilməsindən söz belə açmırlar. Azərbaycanda bir vaxtlar siyasi məhbus axtaranlar, söz azadlığının məhdudlaşdırılmasından dəm vuranlar, müxtəlif bölgələrdə milli azlıq problemi uydurmağa çalışanlar indi "Təsis parlamenti"nin nümayəndəsi V.Avetisyanın hüquqlarının pozulmasının qarşısını yalnız silahlı üsyanla ala biləcəklərinin və buna görə də bütün xalqı dirənişə çağırmaqlarının arxasında duran səbəblərdən bəhs etmirlər. Onlar İrəvanın "Azadlıq" meydanında həbs edilən D.Sansaryan və A.Qukasyanı siyasi məhbus elan edəcəklərmi?

Fransanın xarici işlər naziri Ankaraya xəbərdarlıq etməyə çalışır ki, hərbi qiyamdan sonra təmizlik aparmasın (?!). Ancaq artıq İrəvanda siyasi hakimiyyət heç bir əsas olmadan yüzlərlə insanı müxalif mövqeyinə görə saxlayır. Buna niyə reaksiya yoxdur?

Bütün bunlara rəğmən, Ermənistanda ciddi siyasi ziddiyyətlərin qabardığına şübhə yoxdur. Müxalifətin bir qismi silahlı yolla hansısa dəyişikliyə nail olmağı doğru saymır (bax: məs., V Armenii lider oppoziüii prokommentirovala deystviə zaxvatvişix zdanie poliüii / "Interfax", 17 iyul 2016). Ancaq heç kəs həllini gözləyən siyasi problemlərin olduğunu da inkar etmir. Siyasətçilər Ermənistanda vəziyyəti kardinal surətdə yeniləşdirməyi zəruri sayır, hətta bir sıra hallarda iqtidarı kəskin şəkildə tənqid atəşinə də tuturlar. Analitik İ.Muradyan Ermənistan hakimiyyətini "tayı-bərabəri olmayan axmaqlıqda (orijinalda, "idiotizm" - Newtimes.az) və milli maraqları satmaqda" ittiham edir (bax: İqorğ Muradən. Poka arməne vrut / "Lragir.am", 16 iyul 2016).

Deməli, Ermənistan cəmiyyəti və siyasi hakimiyyətində böyük problemlər mövcuddur. Söhbət bir qrup radikal müxalifətçinin şıltaqlığından getmir. Proseslər radikallıq istiqamətində daha da dərinləşə bilər. S.Sarkisyanın siyasi hakimiyyəti saxlamaq üçün sərt addımlar atması ehtimalının yüksək olduğunu nəzərə alsaq, Cənubi Qafqazın bu kiçik dövlətində qarışıqlığın meydana çıxmasını proqnozlaşdırmaq olar. Demokratiya və sivil idarəetmə üsullarından çox-çox uzaq olan rəsmi İrəvan faktiki olaraq yalnız Ermənistanı deyil, bütövlükdə regionu çətin vəziyyətə salmaqdadır. Bunu onun havadarları da görməli və müvafiq tədbir görməlidirlər. Əks halda, təhlükəsizliyi təhdid edən tendensiyalar baş qaldıra bilər.

Beləliklə, İrəvanın bir rayonunda polis alayının silahlılar tərəfindən zəbt edilməsi özlüyündə lokal hadisədir. Lakin prosesin mahiyyəti, üsyançıların qoyduqları tələblər Ermənistanda ümumi vəziyyət fonunda xeyli dərəcədə təhlükəli təsir bağışlayır. Həmin kontekstdə olayın regional və qlobal miqyasda geosiyasi məzmun kəsb etməsi ehtimalı az deyil. Ermənistan onsuz da region üçün xaos mənbəyidir, son hadisələr onun bu aspektdəki "xidmətlərini" yeni səviyyəyə yüksəldə bilər. Bizcə, böyük dövlətlər də bu məqam üzərində düşünməlidirlər.

**Newtimes.az**



## Elmar Məmmədyarov Britaniyalı deputatlarla görüşüb

Xarici işlər naziri Elmar Məmmədyarov Böyük Britaniya parlamentinin Azərbaycanla dostluq qrupunun sədri Bob Bləkmənin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Elmar Məmmədyarov Azərbaycan-Böyük Britaniya münasibətlərinin hazırkı vəziyyəti, tərəflər arasında əməkdaşlıq edilən əsas sahələr və inkişaf perspektivləri barədə nümayəndə heyətinə məlumat verib. Nazir enerji sahəsində, o cümlədən Azərbaycanın neft və qaz yataqlarının işlənilməsində və xam neftin ixracında əsas marşrut olan Bakı-Tbilisi-Ceyhan kəmərinin reallaşdırılmasında BP şirkəti ilə əməkdaşlığı yüksək qiymətləndirib. Xarici siyasət idarəsinin rəhbəri Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən regional layihələr barədə danışıb və bu layihələrin iştirakçı dövlətlərə, ümumilikdə bütün regiona verəcəyi töhfələri qeyd edib. Elmar Məmmədyarov "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin mahiyyəti və qarşıya qoyulan hədəflərdən söz açıb və ölkəmizin bu istiqamətdə atdığı addımları diqqətə çatdırıb.

Azərbaycanın multikulturalizm və tolerantlıq üzrə dünyaya örnək ola biləcəyini vurğulayan nazir ölkəmizdə əsrlər boyu müxtəlif dinlərə məxsus insanların sülh şəraitində yanaşı yaşadığın misal göstərib.

Ermənistan-Azərbaycan münaqişəsinin tarixi və bu münaqişənin həlli istiqamətində aparılan danışıqların cari vəziyyətinə toxunan Elmar Məmmədyarov Azərbaycanın rəsmi mövqeyini bir daha britaniyalı deputatların diqqətinə çatdırıb. Britaniyalı parlamentarilər Azərbaycanda gedən inkişaf proseslərindən məmnun olduqlarını, ölkəmizin müxtəlif sahələrdə əldə etdiyi uğurları təqdir etdiklərini bildiriblər. Görüşün sonunda nazir qonaqların müxtəlif mövzular üzrə suallarını cavablandırıb.

## Möhsün Pakayin: Azərbaycan-İran əlaqələri strateji xarakter daşımağa başlayır



Azərbaycan ilə İran arasında əlaqələr strateji xarakter daşımağa başlayır. Bu fikri İranın Azərbaycandakı səfiri Möhsün Pakayin IRNA informasiya agentliyinə müsahibəsində deyib. Səfir bildirib ki, bu gün iki ölkənin qarşılıqlı münasibətləri inkişaf edir. Nüvə proqramı ilə bağlı Qərb dövlətləri ilə əldə edilən razılaşmadan sonra İran qonşuları ilə qarşılıqlı əlaqələrin möhkəmləndirilməsini xarici siyasətinin prioritet istiqaməti hesab edir. Azərbaycan İranın yaxın qonşusu olmaqla yanaşı, dost və qardaş dövlətdir. Regionda ikitərəfli və üçtərəfli əməkdaşlığın vacibliyini qeyd edən səfir nəzərə çatdırıb ki, bu əməkdaşlıq əlaqələri təhlükəsizliyin təmin edilməsində əsas rola malikdir.

# Konstitusiya islahatları zamanın tələbindən irəli gəlir

*YAP Pirallahı rayon təşkilatında 58 nəfərdən ibarət ilkin təşəbbüs qrupu yaradılıb və onlardan 5 nəfəri yaranacaq "Yeni Azərbaycan" təşəbbüs qrupuna nümayəndə seçilib*





***Dünən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatında Referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması və yaranacaq "Yeni Azərbaycan" təşəbbüs qrupunda təmsil olunmaq üçün nümayəndələrin müəyyən edilməsi məqsədilə yığıncaq keçirilib.***

Tədbiri giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Manaf Manafov Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Sərəncamı barədə məlumat verib və onun əhəmiyyətindən söhbət açıb: "Azərbaycanın inkişafı yeni dəyişiklikləri, konstitusiya islahatlarını zərurətə çevirib. Ona görə də Ana Yasamızda bəzi əlavə və dəyişikliklərin edilməsi nəzərdə tutulur. Konstitusiya Məhkəməsinə göndərilən Referendum Aktı layihəsində Azərbaycanda I vitse-prezident və vitse-prezidentlər postunun yaradılması, prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə artırılması, prezident seçkilərində yaş məhdudiyyətinin aradan qaldırılması, parlament seçkilərində iştirak etmək üçün yaş həddinin 25-dən 18-ə endirilməsi və s. nəzərdə tutulur. Əminliklə deyə bilərəm ki, nəzərdə tutulan konstitusiya dəyişikliyinə seçicilər müsbət yanaşma münasibəti göstərəcəklər".

Yığıncaqda çıxış edən YAP Pirallahı rayon təşkilatının sədr müavini Ə.Kərimov Azərbaycanın iqtisadi islahatlarından, əldə etdiyi uğurlardan danışıb: "Ölkəni daha effektiv, vətəndaşlar üçün daha rahat bir məkana çevirmək üçün Referenduma ehtiyac var idi. Möhtərəm Prezidentimizin 2016-cı il iyulun 18-də imzaladığı Sərəncamla Azərbaycan Konstitusiyasına dəyişiklik təşəbbüsü ilə çıxış etməsi ölkənin daha dinamik inkişafı, sosial-iqtisadi rifahın təminatlı yüksəlişi, insan hüquqlarına hörmət prinsipinin möhkəmlənməsi istiqamətində atılmış növbəti addımlardandır. Ölkə başçısının təşəbbüslərinin təhlili göstərir ki, onlar dövlət idarəçiliyinin çevikliyini əhəmiyyətli dərəcədə artıracaq və siyasi, iqtisadi və sosial prioritetlərə daha səmərəli yanaşmanı təmin edəcək."

Tədbirdə rayon Ağsaqqallar Şurasının sədri Fazil Məmmədov, YAP rayon təşkilatı gənclər birliyinin sədri Orxan Babayev, rayon təşkilatının aparat rəhbəri Emin İlyasov və digərləri çıxış edərək bildirdilər ki, irəli sürülən Referendum Aktı layihəsi ölkə vətəndaşlarının hüquq və azadlıqlarının daha da genişlənməsinə, ölkəmizin qanunvericiliyinin daha təkmil forma almasına yol açacaq. Vurğulandı ki, konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı ümumxalq müzakirəsinə çıxarılmış məsələləri seçicilər arasında geniş və hərtərəfli şəkildə təşviq etmək başlıca məqsəd olacaq.

Tədbirdə Referendum üzrə 58 nəfərdən ibarət ilkin təşəbbüs qrupu yaradılıb və onlardan 5 nəfəri yeni yaranacaq "Yeni Azərbaycan" təşəbbüs qrupuna nümayəndə seçilib.

**Samir**





# YAP Gəncə şəhər təşkilatının qərargahında referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması ilə bağlı yığıncaq keçirilib

***Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının qərargahında referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması və yaranacaq "Yeni Azərbaycan" təşəbbüs qrupunda təmsil olunmaq üçün nümayəndələrin müəyyən edilməsi ilə bağlı yığıncaq keçirilib.***

Tədbirdə YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev çıxış edərək "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı haqqında geniş məlumat verib. Onun sözlərinə görə, Prezident İlham Əliyev hələ bu ilin əvvəlində 2016-cı ilin ölkəmizdə dərin islahatlar ili olduğunu vurğulayıb. Cari ildə bir çox istiqamətlərdə ciddi islahatlar həyata keçirilib, ölkənin iqtisadi, siyasi həyatında yeni mərhələyə qədəm qoyulub. Tədbirdə çıxış edən YAP Gəncə şəhər təşkilatı İdarə Heyətinin üzvü Fuad Əliyev, YAP Gəncə şəhər təşkilatı İdarə Heyətinin üzvü İbrahim Cəfərov, YAP Gəncə şəhər təşkilatı Qadınlar Şurasının sədri, millət vəkili Pərvin Kərimzadə və başqaları Konstitusiyaya təklif olunan dəyişiklər barədə öz fikirlərini bölüşüb, xalqımızın bu dəyişiklikləri dəstəkləyəcəyklərinə əminliklərini ifadə ediblər. Sonda YAP Gəncə şəhər təşkilatında 79 nəfərdən ibarət təşəbbüs qrupu yaradılıb və 7 nəfər yeni yaranacaq "Yeni Azərbaycan" təşəbbüs qrupuna nümayəndə seçilib.

# Qubada referendumla bağlı ilkin təşəbbüs qrupu yaradılıb





***Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının qərargahında Referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması və təşəbbüs qrupunda təmsil olunmaq üçün nümayəndələrin müəyyən edilməsi barədə yığıncaq keçirilib.***

Yığıncağı giriş sözü ilə açan YAP Quba rayon təşkilatının sədri Yusif Avidov qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasının Konstitusiyasına təklif etdiyi dəyişikliklər zamanın tələbidir və zərurətdən yaranıb:"Konstitusiyaya təklif edilən dəyişikliklər ölkədə insan hüquq və azadlıqlarının konstitusion təminatının daha da gücləndirilməsinə, demokratik təsisatların fəaliyyətinin və bütövlükdə idarəetmə sisteminin təkmilləşdirilməsinə xidmət göstərir. Referendum Aktı layihəsində Azərbaycanda birinci vitse-prezident və vitse-prezidentlər postunun yaradılması, prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə artırılması və s. nəzərdə tutulur. Konstitusiyaya təklif edilən dəyişikliklər günün reallığıdır, ölkənin inkişafına, respublikanın gücünün, qüdrətinin artmasına, onun təhlükəsizlik sisteminin möhkəmlənməsinə xidmət göstərən amillərdəndir".

Y.Avidov daha sonra referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması barədə məlumat verərək bildirib ki, "Yeni Azərbaycan" təşviqat qrupu üzərinə düşən vəzifəni uğurla yerinə yetirəcəkdir: "Başlıca məqsədimiz konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı ümumxalq müzakirəsinə çıxarılmış məsələləri seçicilər arasında geniş və hərtərəfli şəkildə təşviq etməkdir".

Yığıncaqda YAP Quba rayon təşkilatı idarə heyətinin üzvü, millət vəkili Yevda Abramov çıxış edərək, xalqımızın, o cümlədən Quba camaatının Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən daxili və xarici siyasət xəttini birmənalı şəkildə müdafiə etdiyini qeyd edib:

"Əminik ki, təşəbbüs qrupunun apardığı işlər öz uğurlu nəticələrini verəcək və seçicilərin böyük əksəriyyəti konstitusiyaya təklif olunan dəyişikliklərə müsbət yanaşacaqdır".

YAP Quba rayon təşkilatının idarə heyətinin üzvü, rayon ağsaqqallar şurasının sədri Həsən Günəşli konstitusiyaya təklif olunan dəyişikliklərin zəruriliyini qeyd edib.

Beləliklə, 61 nəfərdən ibarət ilkin təşəbbüs qrupu yaradılıb və 6 nəfər yeni yaranacaq "Yeni Azərbaycan" Təşəbbüs qrupuna nümayəndə seçilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Qubadlı rayon təşkilatı Referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması ilə bağlı iclas keçirib



***Sumqayıt şəhərində yerləşən Yeni Azərbaycan Partiyası Qubadlı rayon təşkilatının qərargahında sentyabrın 26-da keçiriləcək Referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması və referendum üzrə təşəbbüs qrupunda təmsil olunmaq üçün nümayəndələrin müəyyən edilməsi ilə bağlı iclas keçirilib.***

Tədbirdə çıxış edən YAP Qubadlı rayon təşkilatının sədri Allahverdi Haxverdiyev "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı layihəsinin ölkəmiz üçün böyük əhəmiyyətə malik olduğunu bildirib. Qeyd edilib ki, dinamik inkişafa malik ölkəmizin təhlükəsizlik sisteminin daha da təkmilləşdirilməsi, dövlət strukturlarında islahatların aparılması, eləcə də digər məsələlər belə mütərəqqi dəyişiklikləri zərurətə çevirir. Vurğulanıb ki, nəzərdə tutulan dəyişikliklər insan hüquq və azadlıqlarının qorunması, təhlükəsizlik sisteminin möhkəmləndirilməsi, dövlət aparat sisteminin təkmilləşdirilməsi, seçkidə iştirakın tam şəkildə sərbəstləşdirilməsi, o cümlədən informasiya təhlükəsizliyi, anonim informasiyaların aradan qaldırılması, vətəndaşların müraciətlərinə baxılması, dövlət və bələdiyyə qurumlarından, onların hərəkət və hərəkətsizliyindən vətəndaşın şikayət etmək hüququnu özündə əks etdirir.

Yığıncaqda 53 nəfərdən ibarət referendum üzrə ilkin təşəbbüs qrupu və yeni yaranacaq "Yeni Azərbaycan" təşəbbüs qrupunda təmsil olunmaq üçün 5 nəfər nümayəndənin müəyyən edilməsi barədə qərar qəbul edilib.



# Konstitusiyaya təklif olunan dəyişikliklər ölkəmiz üçün əhəmiyyətlidir

***Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının qərargahında referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması və təşəbbüs qrupunda təmsil olunmaq üçün nümayəndələrin müəyyən edilməsi barədə yığıncaq keçirilib.***

YAP Sumqayıt şəhər təşkilatının sədri Asif İmaməliyev Konstitusiyaya təklif olunan dəyişikliklərin ölkəmiz üçün əhəmiyyətindən danışıb. Qeyd edilib ki, Konstitusiyanın 29 maddəsi üzrə 39 düzəliş və əlavə nəzərdə tutulur. Azərbaycan Respublikasının Konsititusiyasına təklif edilən dəyişikliklər ölkədə insan hüquq və azadlıqlarının konstitusion təminatının daha da gücləndirilməsinə, idarəetmə sisteminin təkmilləşdirilməsinə xidmət göstərir. A.İmaməliyev referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması barədə məlumat verib: "Konstitusiyaya təklif olunan dəyişikliklər Azərbaycan Respublikasında gedən iqtisadi inkişafdan irəli gəlir. Bu dəyişikliklər vətəndaşların hüquq və azadlıqlarının qorunması, idarəetmənin təkmilləşdirilməsi, respublikanın təhlükəsizlik sisteminin möhkəmləndirilməsinə mühüm töhfələr verəcək".

Tədbirdə çıxış edən YAP Sumqayıt şəhər təşkilatının təşkilat şöbəsinin müdiri Vəzirxan Ənsərov, YAP Sumqayıt şəhər təşkilatının sədr müavini Elmar Xəlilov və başqaları ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan dövlət siyasətinin ölkə vətəndaşlarının sosial rifahının yüksəlməsinə və demokratik inkişafa xidmət etdiyini dilə gətiriblər. Tədbirdə vurğulanıb ki, "Yeni Azərbaycan" təşəbbüs qrupunun apardığı işlər öz uğurlu nəticəsini verəcək və seçicilərin əksəriyyəti Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərə dəstəkləyəcəklər.

Daha sonra tədbirdə 70 nəfərdən ibarət ilkin təşəbbüs qrupunun yaradılması və yeni yaranacaq "Yeni Azərbaycan" referendum üzrə təşəbbüs qrupunda təmsil olunmaq üçün 7 nəfər nümayəndənin seçilməsi qərara alınıb.

# Mövlud Çavuşoğlu: Azərbaycan Gülən hərəkatı ilə mübarizəyə mühüm töhfə verib



"Azərbaycan Fethullah Gülən hərəkatı ilə mübarizəyə mühüm töhfə verib." Trend-in TRT Haber telekanalına istinadən verdiyi məlumata görə, bunu Türkiyə XİN rəhbəri Mövlud Çavuşoğlu deyib.

Onun sözlərinə görə, Azərbaycanın Gülən hərəkatı ilə mübarizədə verdiyi dəstək Türkiyənin qardaş ölkələri üçün nümunə olmalıdır. Qeyd edək ki, Türkiyədə iyulun 15-dən 16-na keçən gecə dövlət çevrilişinə cəhd edilib. Hadisədə 246 nəfər ölüb, 2000-dən çox insan xəsarət alıb.

# Külli miqdarda qanunsuz valyutanın qarşısı alınıb

Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları 2 fakt üzrə 37 900 ABŞ dollarının qeyri-qanuni yolla gömrük sərhədindən keçirilməsinin qarşısını alıb. SİA-nın məlumatına görə, Bakı-Yekaterinburq aviareysi ilə Rusiya Federasiyasına getmək üçün Heydər Əliyev Beynəlxalq Aeroportuna gələn Azərbaycan Respublikası vətəndaşı gömrük nəzarəti zonasına daxil olarkən hərəkətləri gömrük əməkdaşında şübhə doğurduğuna görə saxlanılaraq şəxsi yoxlamaya dəvət olunub. Qanunvericiliyə uyğun olaraq həyata keçirilən şəxsi yoxlama zamanı onun üzərindən əvvəlcədən gömrük orqanına təqdim olunmayan, elektron və ya yazılı formada bəyan edilməyən 18 600 ABŞ dolları aşkar edilib. Bakı-Dubay aviareysi ilə Birləşmiş Ərəb Əmirliklərinə getmək üçün Heydər Əliyev Beynəlxalq Aeroportuna gələn digər Azərbaycan Respublikası vətəndaşı isə şifahi formada bəyan etdiyi 10 000 ABŞ dollarından başqa üzərində xarici valyutanın və ya digər mütləq bəyan olunası əşyaların olmadığını bildirib. Lakin hərəkətləri şübhə doğurduğuna görə Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları tərəfindən qanunvericiliyə uyğun olaraq onun üzərində şəxsi yoxlama aparılıb. Yoxlama zamanı həmin şəxsin üzərindən 19 300 ABŞ dolları aşkar edilib. Hər iki faktla bağlı araşdırma aparılır.

## YAP Xaçmaz rayon təşkilatında Referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması ilə bağlı tədbir keçirilib



Dünən Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatının qərargahında Referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması və təşəbbüs qrupunda təmsil olunmaq üçün nümayəndələrin müəyyən edilməsi ilə bağlı yığıncaq keçirilib. Tədbiri rayon təşkilatının sədri Nazim Ağayev açaraq qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsinin Konstitusiya Məhkəməsinə göndərilməsi barədə Sərəncamının ölkəmiz üçün faydalı olduğunu bildirib: "Ölkə inkişaf etdikcə, təhlükəsizlik sistemi yaxşılaşdıqca, dövlət strukturlarında islahatlar keçirildikcə, beynəlxalq konvensiyalara qoşulduqca münasibətlərin tənzimlənməsi üçün konstitusiyaya müvafiq dəyişikliklərin olmasına zərurət yaranır. Məlumat üçün qeyd edim ki, konstitusiyamız 1995-ci ildə Ulu Öndər tərəfindən hazırlanaraq ümumxalq səsverməsi ilə təsdiq edilmişdir. Ölkə inkişaf etdikcə, beynəlxalq nüfuzunda baş verən böyük dəyişikliklər, ölkədə aparılan uğurlu islahatların müsbət nəticələri, Azərbaycan xalqının rifahının günü-gündən artması, müxtəlif beynəlxalq Konvesiyalara qoşulması, konstitusiyada dəyişikliklərin aparılması zərurəti yaradır. N.Ağayev çıxışının sonunda hər kəsi prosesdə fəal olmağa çağırıb.



Çıxış edənlərdən YAP Xaçmaz rayon təşkilatının sədr müavini Abasyar Heydərov, rayon təşkilatının şura üzvü, Heydər Əliyev Mərkəzinin direktoru Könül Əsgərova və başqaları bildiriblər ki, sentyabrın 26-da ümumxalq səsverməsinə çıxarılacaq layihə mütərəqqi dəyişiklikləri nəzərdə tutur: "Bu gün xalqımız Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən daxili və xarici siyasət xəttini birmənalı şəkildə müdafiə edir. Əminik ki, təşəbbüs qrupunun apardığı işlər öz uğurlu nəticələrini verəcək və seçicilərin böyük əksəriyyəti konstitusiyaya təklif olunan dəyişikliklərə müsbət yanaşacaqdır".

Sonda 67 nəfərdən ibarət ilkin təşəbbüs qrupu yaradılıb və onlardan 6 nəfəri yeni yaranacaq "Yeni Azərbaycan" təşəbbüs qrupuna nümayəndə seçilib.

**A.SƏMƏDOVA**

## YAP Qazax rayon təşkilatı Referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması ilə bağlı yığıncaq keçirib



Yeni Azərbaycan Partiyası Qazax rayon təşkilatının qərargahında Referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması və təşəbbüs qrupunda təmsil olunmaq üçün nümayəndələrin müəyyən edilməsi ilə bağlı yığıncaq keçirilib. Tədbirdə çıxış edən YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı haqqında məlumat verib. Sentyabrın 26-da ümumxalq səsverməsinin keçiriləcəyini bildirən H.Pənahov irəli sürülən təkliflərin mütərəqqi xarakter daşıdığını önə çəkib: "Ölkəmizin inkişafına təkan verən uzunmüddətli islahatlar proqramı Azərbaycan xalqının istər iqtisadi durumunda, istərsə də sosial yaşamında öz müsbət təsirini göstərməkdədir. Bu gün Azərbaycan dövləti ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə inkişaf etməkdədir. Müasir dövrün tələbləri qanunvericiliyimizin zaman-zaman yeniləşməsi zərurətini gündəmə gətirir. Bu mənada, irəli sürülən Referendum Aktı layihəsi ölkə vətəndaşlarının hüquq və azadlıqlarının daha da genişlənməsinə, ölkəmizin qanunvericiliyinin daha təkmil forma almasına yol açacaq. İrəli sürülən Refrendum Aktı layihəsində əksini tapan dəyişikliklərin hər birini təhlil etdikdə, yalnız xalqın maraqlarının əsas götürüldüyü meydana çıxır. Bu dəyişikliklər Azərbaycanın müasir inkişaf dinamikası, modernləşmə strategiyasının tələbləri ilə ayaqlaşaraq, ölkənin siyasi və sosial-iqtisadi inkişafının mahiyyətindən doğur". Tədbirdə çıxış edən YAP Qazax rayon təşkilatının idarə heyətinin üzvü Arzu Novruzov, YAP Qazax rayon təşkilatı idarə heyətinin üzvü, YAP Qazax rayon təşkilatı gənclər birliyinin sədri Vüsal İsmayılov irəli sürülən dəyişikliklərin əhəmiyyətindən söz açıblar.

İclasda 51 nəfərdən ibarət təşəbbüs qrupu yaradılıb və onlardan 5 nəfəri yeni yaranacaq "Yeni Azərbaycan" təşəbbüs qrupuna nümayəndə seçilib.

**Ü.ƏSGƏROV**

## Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib

Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun növbəti açıq məhkəmə iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Z.Hüseynovun şikayəti ilə bağlı Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2015-ci il 15 dekabr tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxılıb. Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim R.Qvaladzenin məruzəsini, ərizəçinin və cavabverən orqanın nümayəndəsinin çıxışlarını dinləyib, işin materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib. Qərarda deyilir ki, Z.Hüseynovun Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər ərazi idarəsinə qarşı qeydiyyat vəsiqəsinin ləğv edilməsi tələbinə dair iş üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2015-ci il 15 dekabr tarixli qərarı Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə, Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 91-ci və 96-cı maddələrinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilsin. İşə Azərbaycan Respublikasının inzibati və mülki prosessual qanunvericilikləri ilə müəyyən edilmiş qaydada və müddətdə yenidən baxılsın. Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

## Oğuzda Referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması ilə bağlı yığıncaq keçirilib

***Dünən YAP Oğuz rayon təşkilatında Referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması və Referendum üzrə təşəbbüs qrupunda təmsil olunmaq üçün nümayəndələrin müəyyən edilməsi barədə yığıncaq keçirilib.***



Yığıncağa sədrlik edən Saleh Məhərrəmov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsi ümumxalq səsverməsinə (Referenduma) çıxarılması barədə Sərəncamının ölkəmiz üçün əhəmiyyətindən bəhs edib: "Ölkə inkişaf etdikcə, təhlükəsizlik sistemi yaxşılaşdıqca, dövlət strukturlarında islahatlar həyata keçirildikcə, beynəlxalq konvensiyalara qoşulduqca, münasibətlərin tənzimlənməsi üçün konstitusiyaya müvafiq dəyişikliklərin olmasına zərurət yaranır".

Saleh Məhərrəmov onu da bildirib ki, konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı ümumxalq müzakirəsinə çıxarılmış məsələləri seçicilər arasında geniş və hərtərəfli şəkildə təşviq etməklə, əhalini məsələ ilə bağlı tam məlumatlandırmalıyıq.

Tədbirdə YAP Oğuz rayon təşkilatının idarə heyətinin üzvü, təşkilatın qadınlar şurasının sədri Mariya Həsrətova, YAP rayon təşkilatının və rayon ağsaqqallar şurasının sədr müavini Yusif Naxçıvanlı və digərləri çıxış edərək yaranacaq ,,Yeni Azərbaycan" təşəbbüs qrupunun aparacağı işlərin öz uğurlu nəticəsini verəcəyinə və bunun nəticəsi olaraq seçicilərin böyük əksəriyyətinin konstitusiyaya təklif olunan dəyişikliklərə müsbət yanaşacağına əminliklərini ifadə ediblər.

Yığıncaqda 53 nəfərdən ibarət təşəbbüs qrupu yaradılıb və onlardan 5 nəfər yaranacaq "Yeni Azərbaycan" təşəbbüs qrupuna nümayəndə seçilib.

***Rəfiqə***

## Bu ilin 6 ayı ərzində ölkəmizdə 500-dən artıq müəssisə yaradılıb

Bu ilin yanvar-iyun ayları ərzində Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə 3 milyard 190,1 milyon manat vəsait toplanıb. Vergilərin 929 milyon manatı və ya 29,1 faizi dövlət sektorunun, 2 milyard 261,1 milyon manatı və ya 70,9 faizi isə qeyri-dövlət sektorunun payına düşüb. 2016-cı ilin ilk yarısında ölkəmizdə 500-dən artıq yeni müəssisə yaradılıb. Həmin müəssisələrin böyük qismi bölgələrin payına düşür. Bunlar əsasən qeyri-neft sektorunu əhatə edən 200-ə yaxın orta və iri müəssisədir. Yeni müəssisələrin fəaliyyətə başlaması vergi daxilolmalarında əlavə mənbələrin cəlb edilməsinə mühüm təsir göstərir. Həyata keçirilən tədbirlər sayəsində qeyri-neft sektorunda istehsalın 9,7 faiz artmasına nail olunub.



# Yevlaxda ilkin təşəbbüs qrupu yaradıldı

***Dünən Yeni Azərbaycan Partiyasının Yevlax şəhər təşkilatında sentyabrın 26-na təyin olunan Azərbaycan Respublikasının Konstitusiyasına ediləcək əlavə və dəyişikliklərlə bağlı referenduma ilkin təşəbbüs qrupunun yaradılması ilə bağlı yığıncaq keçirilib. SİA-nın verdiyi məlumata görə, yığıncaqda YAP Yevlax şəhər təşkilatının fəalları iştirak ediblər. İclasda YAP Yevlax şəhər təşkilatının sədri, millət vəkili İlham Məmmədov Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında ümumxalq səsverməsinin ( Referendum) keçirilməsi məqsədi ilə sərəncamı və Referendum Aktı layihəsinin mahiyyəti haqqında geniş məlumat verib.***





O, Konstitusiyasında dəyişikliklər edilməsinin ölkəmiz üçün faydalılığından bəhs edərək bildirib ki, ölkə inkişaf etdikcə, dövlət strukturlarında islahatlar həyata keçirildikcə, ölkəmiz beynəlxalq konvensiyalara qoşulduqca münasibətlərin tənzimlənməsi üçün Konstitusiyaya müvafiq dəyişikliklərin olmasına zərurət yaranır:" Bilirik ki, Azərbaycanda Konstitusiya 1995-ci ildə qəbul olunub. Ötən 20 ildən artıq müddətdə Konstitusiyaya bir neçə dəfə əlavə və dəyişikliklər olub. Ölkəmizin sürətlə inkişaf etməsini nəzərə alsaq indi də növbəti referendumun keçirilməsi və dəyişikliklərin edilməsinin zəruriliyinin bir daha şahidi oluruq. Hər bir dövlətdə bu cür addımlar atılır. Konstitusiyanın qəbulundan 20 ildən artıq vaxt keçib, zərurət yarandıqca mərhələli şəkildə bu addımlar bizim ölkəmizdə də atılmalıdır. Dəyişikliklərdə insan hüquq və azadlıqlarının qorunması, təhlükəsizliyin möhkəmləndirilməsi, dövlət aparat sisteminin təkmilləşdirilməsi, seçkidə iştirakın tam şəkildə sərbəstləşdirilməsi, o cümlədən informasiya təhlükəsizliyi, anonim informasiyaların aradan qaldırılması, vətəndaşların müraciətlərinə baxılması, dövlət və bələdiyyə qurumlarından, onların hərəkət və hərəkətsizliyindən vətəndaşın şikayət etmək hüququ əksini tapıb. Konstitusiya Məhkəməsinə göndərilən Referendum Aktı layihəsində Azərbaycanda birinci vitse-prezident və vitse-prezidentlər postunun yaradılması, prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə artırılması, prezident seçkilərində yaş məhdudiyyətinin aradan qaldırılması, parlament seçkilərində iştirak üçün yaş həddinin 25-dən 18-ə endirilməsi və s. nəzərdə tutulur".

YAP Yevlax şəhər təşkilatının Aparat rəhbəri yığıncağın katibi Əli Quliyev referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması barədə geniş məlumat verərək bildirib ki, başlıca məqsədimiz Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı ümumxalq müzakirəsinə çıxarılmış məsələlərin mahiyyətini seçicilər arasında geniş və hərtərəfli şəkildə təbliğ etməkdir.

YAP Yevlax şəhər təşkilatı İdarə Heyətinin üzvü, Qadınlar Şurasının sədri Əminə Əhmədova çıxış edərək bildirib ki, Prezidentin müvafiq sərəncamına əsasən Konstitusiyamıza təklif olunan əlavə və dəyişikliklərin xalqımızın gələcəyi üçün zəruri olduğunu hər birimiz çox yaxşı dərk edirik.

YAP Yevlax şəhər təşkilatının şura üzvü Minnət Mürsəlov və Gənclər Birliyinin sədri Ariz Mikayılov gündəlikdə duran məsələ ilə bağlı öz fikirlərini bildirərək qeyd ediblər ki, biz hər birimiz cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən daxili və xarici siyasəti birmənalı şəkildə müdafiə edir və dəstəkləyirik. Konstitusiyaya təklif olunan dəyişikliklər xalqımızın və dövlətimizin gələcəyi üçün atılan uğurlu addımdır.

Sonda Yevlax şəhər təşkilatı üzrə 57 nəfərdən ibarət ilkin təşəbbüs qrupu yaradılıb və təşəbbüs qrupu üzvlərindən 5 nəfət yaranacaq "Yeni Azərbaycan" təşəbbüs qrupuna nümayəndə seçilib.

# YAP Biləsuvar rayon təşkilatında Referendum üzrə ilkin təşəbbüs qrupu yaradılıb

***Dünən Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının qərargahında referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması və referendum üzrə təşəbbüs qrupunda təmsil olunmaq üçün nümayəndələrin müəyyən edilməsi barədə yığıncaq keçirilib.***



Yığıncaqda çıxış edən YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Konstitusiyaya təklif etdiyi dəyişikliklər zamanın tələbidir və zərurətdən yaranıb: "Prezident İlham Əliyev tərəfindən Konstitusiyaya təklif edilən dəyişikliklər insan hüquqlarının genişləndirilməsinə, vətəndaş cəmiyyətinin modernləşməsinə yönəlib. Bu dəyişikliklər Azərbaycan gəncliyinə daha geniş imkanlar yaradacaq və onların inkişafı üçün böyük stimul olacaq. Bu gün Azərbaycan gəncliyi aktivdir. Onlar ölkənin ictimai-siyasi həyatında uğurla iştirak edirlər. Ölkəmizdə gənclər üçün böyük imkanlar yaradılıb".

K.Mirzəyev çıxışında onu da qeyd edib ki, 1995-ci ildə Azərbaycanda Konstitusiya qəbul olunduqdan ötən 20 ildən artıq müddətdə zərurət yarandıqca Konstitusiyaya dəyişikliklər edilməsi barədə addımlar atılıb. Konstitusiya Məhkəməsinə göndərilən Referendum Aktı layihəsində Azərbaycanda birinci vitse-prezident və vitse-prezidentlər postunun yaradılması, prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə artırılması, parlament seçkilərində yaş həddinin 25-dən 18-ə endirilməsi və s. nəzərdə tutulur.

Yığıncaqda YAP Biləsuvar rayon təşkilatının idarə heyətinin üzvü Kamil Qurbanlı çıxış edərək bildirdi ki, Konstitusiyamıza təklif olunan əlavə və dəyişikliklərin zəruri olduğu hamıya bəllidir. Təşəbbüs qrupunun bundan sonrakı fəaliyyəti və aparacağı kampaniya üçün təqdim olunan səlahiyyətli nümayəndələrin təsdiq edilməsinə tərəfdardır.

YAP Biləsuvar rayon təşkilatının və rayon ağsaqqallar şurasının üzvü Akif Kazımov çıxış edərək bildirdi ki, xalqımız Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən daxili və xarici siyasət xəttini birmənalı şəkildə müdafiə edir: "Əminik ki, yeni yaranacaq "Yeni Azərbaycan" təşəbbüs qrupunun aparacağı işlər öz uğurlu nəticəsini verəcək və seçicilərin böyük əksəriyyəti Konstitusiyaya təklif olunan dəyişikliklərə müsbət yanaşacaqdır".

Yığıncaqda 52 nəfərdən ibarət ilkin təşəbbüs qrupu yaradılıb. Onlardan 5 nəfər isə yeni yaranacaq "Yeni Azərbaycan "təşəbbüs qrupuna nümayəndə seçilib.

***R.KAMALQIZI***

# 364 min şəxs aylıq sosial müavinət alır

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən aylıq sosial sosial müavinətlə təmin olunanların sayı hazırda 364084 nəfər təşkil edir. ƏƏSMN-in İctimaiyyətlə əlaqələr şöbəsindən SİA-ya verilən məlumata görə, həmin şəxslərdən 40,1 faizi əlilliyə, 4,1 faizi yaşa, 11,6 faizi ailə başçısını itirməyə görə aylıq sosial müavinətlə təmin olunur. Həmçinin aylıq sosial müavinət alanlardan 19,2 faizi sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar, 13,4 faizi müharibə veteranlarıdır. Beşdən çox uşağı olan qadınların, müharibə əlilləri və şəhid ailələrinin, I və II qrup Çernobıl AES əlillərinin, müddətli hərbi xidmət qulluqçularının uşaqlarının, ünvanlı dövlət sosial yardımı ilə təmin edilən aztəminatlı ailələrdəki bir yaşadək uşaqların hər birinə görə də aylıq sosial müavinət ödənilir. Müvafiq kateqoriyalardan olan digər şəxslər də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aylıq sosial müavinətlə təmin edilirlər. Bununla yanaşı, uşağın doğulmasına görə ailələrə, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş, tibbi və sosial yardıma ehtiyacı olan şəxslərə və qanunvericilikdə nəzərdə tutulan digər kateqoriyalara aid insanlara birdəfəlik müavinətlər verilir. Cari ildə nazirlik tərəfindən birdəfəlik müavinətlə təmin edilənlərin sayı 60660 nəfər təşkil edib. Bütün sosial ödənişlər kimi, sosial müavinətlərin məbləğinin də mütəmadi olaraq artırılması təmin edilir. Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2016-cı il tarixli "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Fərmanına əsasən, sosial müavinətlərin məbləği cari il fevralın 1-dən növbəti dəfə artırılıb.

## Hazırda ölkəmizdə 210 mindən çox şəkərli diabet xəstəsi qeydə alınıb




Hazırda ölkəmizdə 210 mindən çox şəkərli diabet xəstəsi qeydə alınıb. Dünyada isə 390 milyondan çox insan bu xəstəlikdən əziyyət çəkir. AZƏRTAC xəbər verir ki, bu fikri iyulun 28-də Ümumdünya Hepatit Gününə həsr olunmuş tədbirdə Azərbaycan Diabet Cəmiyyətinin sədri Möminat Ömərova deyib. O bildirib ki, ölkəmizdə diabetdən əziyyət çəkən xəstələr insulin analoqları, qlükometr və test çubuqları ilə daim tam təmin olunurlar. Şəkərli diabet xəstələrinin şəkərsalıcı preparatlar, insulin, insulin analoqları və özünənəzarət vasitələri ilə təmin olunması işi Bakı ilə yanaşı, rayonlarda da həyata keçirilir. Bu sahədə xidmət səviyyəsinin daha da artırılması məqsədilə xəstələrin müayinə və müalicəsi, dərman və özünənəzarət vasitələri ilə təmin edilməsi üçün Bakı şəhəri üzrə elektron registr yaradılıb.

# YAP Gədəbəy rayon təşkilatı Referendum üzrə ilkin təşəbbüs qrupunu yaratdı

***Dünən Yeni Azərbaycan Partiyası (YAP) Gədəbəy rayon təşkilatı Referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması və Referendum üzrə təşəbbüs qrupunda təmsil olunmaq üçün nümayəndələrin müəyyən edilməsi barədə yığıncaq keçirib.***





YAP Gədəbəy rayon təşkilatının sədri Rüstəm Nağıyev yığıncaqda çıxış edərək qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı layihəsinin Konstitusiya Məhkəməsinə göndərilməsi barədə Sərəncamının ölkəmiz üçün faydası var: "Ölkə inkişaf etdikcə, təhlükəsizlik sistemi yaxşılaşdıqca, dövlət strukturlarında islahatlar həyata keçirildikcə, beynəlxalq konvensiyalara qoşulduqca münasibətlərin tənzimlənməsi üçün konstitusiyaya müvafiq dəyişikliklərin edilməsinə zərurət yaranır. Azərbaycanda konstitusiya 1995-ci ildə qəbul olunub. Ötən 20 ildən artıq müddətdə Konstitusiyaya bir neçə dəfə əlavə və dəyişikliklər olub. İndi də növbəti referendumun keçirilməsi və dəyişikliklərin edilməsi nəzərdə tutulur. Dəyişikliklərdə insan hüquq və azadlıqlarının qorunması, təhlükəsizlik sisteminin möhkəmləndirilməsi, dövlət aparat sisteminin təkmilləşdirilməsi, seçkidə iştirakın tam şəkildə sərbəstləşdirilməsi, o cümlədən informasiya təhlükəsizliyi, anonim informasiyaların aradan qaldırılması, vətəndaşların müraciətlərinə baxılması, dövlət və bələdiyyə qurumlarından, onların hərəkət və hərəkətsizliyindən vətəndaşın şikayət etmək hüququ əksini tapıb. Konstitusiya Məhkəməsinə göndərilən Referendum Aktı layihəsində Azərbaycanda birinci vitse-prezident və vitse-prezidentlər postunun yaradılması, prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə artırılması, prezident seçkilərində yaş məhdudiyyətinin aradan qaldırılması, parlament seçkilərində iştirak üçün yaş həddinin 25-dən 18-ə endirilməsi və s. nəzərdə tutulur".

R.Nağıyev Referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması barədə məlumat verərək bildirdi ki, məqsədimiz konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı ümumxalq müzakirəsinə çıxarılmış məsələləri seçicilər arasında geniş və hərtərəfli şəkildə təşviq etməkdir.

Yığıncaqda YAP Gədəbəy rayon təşkilatının sədr müavini Ləzgi Zeynalov, YAP Gədəbəy rayon təşkilatı idarə heyətinin üzvü və rayon Ağsaqqallar Şurasının sədri Kərəm Məmmədov və başqaları çıxış edərək konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərin zəruri olduğunu bildirdilər. Çıxış edənlər əminliklə yaranacaq "Yeni Azərbaycan" təşəbbüs qrupunun apardığı işlərin uğurlu nəticəsini verəcəyini və seçicilərin böyük əksəriyyətinin konstitusiyaya təklif olunan dəyişikliklərə müsbət yanaşacaqlarını bildirdilər.

Yığıncaqda 51 nəfərdən ibarət referendum üzrə ilkin təşəbbüs qrupu yaradılıb. Onlardan 5 nəfər yaranacaq "Yeni Azərbaycan" təşəbbüs qrupuna nümayəndə seçilib.

***R.HÜSEYNOVA***

# Deputat: "Görüşlər Dağlıq Qarabağ probleminin həllinə təsirsiz ötüşməyəcək"



"Rusiya prezidenti Vladimir Putin avqustun 8-də Azərbaycanın dövlət başçısı İlham Əliyevlə, 9-da isə Rəcəb Tayyib Ərdoğanla görüşəcək". Bunu SİA-ya millət vəkili Sahib Alıyev deyib. Onun sözlərinə görə, cənab İlham Əliyevlə görüş Bakıda, Türkiyə prezidenti ilə görüş isə Sankt-Peterburqda olmalıdır: "Fikrimcə, həm də Azərbaycanın regionda oynadığı rolu ortaya qoyan bu görüşlər bizim maraqlarımız baxımından olduqca əhəmiyyətlidir. Bu görüşlər Dağlıq Qarabağ probleminin həllinə təsirsiz ötüşməyəcək". Qeyd edək ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan avqustun 9-da Sankt-Peterburqa gedəcək. Rusiya mətbuatına istinadən məlumata görə, bunu Türkiyənin baş nazirinin müavini Mehmet Şimşek bildirib. Onun sözlərinə görə, görüşdə Moskva və Ankaranın əlaqələrinin qısa müddət ərzində bərpa edilməsi müzakirə olunacaq. Rusiya prezidenti Ərdoğanla görüşdən bir gün öncə - avqustun 8-də Azərbaycana səfər edəcək. Bakıda Azərbaycan, Rusiya və İran prezidentləri - İlham Əliyev, Vladimir Putin və Həsən Ruhaninin görüşü keçiriləcək.

# Kinematoqrafçılar İttifaqı müsabiqə ELAN EDİR

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı "YENİ NƏFƏS-II" adlı qısametrajlı ssenari müsabiqəsi elan edir.

**Məqsəd:**

Müsabiqə kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirmək məqsədi ilə keçirilir.

Müsabiqə həm də digər sahələrdə çalışan gənclərə, kinoda özlərini sınamaq imkanı yaratmaq və bununla da, mövcud rəqabəti gücləndirmək mövqeyi tutur.

**Şərtlər:**

· Yaşı 35-ə qədər olan bütün şəxslər müsabiqəyə ssenarisini təqdim edə bilər.

· Müsabiqəyə istənilən janrda, bədii, sənədli və animasiya ssenariləri qəbul olunur.

· Müsabiqəyə təqdim olunan ssenarinin hüquqları müəllifə məxsus olmalı, satılmamalı və çəkiliş dövründə olmamalıdır.

· Ssenari orijinal, yəni, ekranlaşdırılmamış olmalıdır.

· Qısametrajlı film üçün nəzərdə tutulmuş ssenarilər müsabiqəyə 20 səhifədən çox olmamaq şərti ilə, üç nüsxədə, çap olunmuş və CD diskdə rəqəmsal daşıyıcıda təqdim olunmalıdır.

· Şrift Courier New, ölçü 12 tələb olunur.

· Çap olunmuş ssenarilərdə müəllifin ad və soyadı qeyd olunmamalıdır.

· Müəllif ssenari ilə birgə tərcümeyi-halını da təqdim etməlidir.

· Hər bir müəllif 3 (üç) ssenaridən artıq təqdim edə bilməz.

· Müsabiqəyə təqdim olunan ssenarilər geri qaytarılmır.

· Ssenarilər 31 iyul 2016-cı il tarixinə kimi Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının ünvanına göndərilməlidir.

· Ünvan: Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı, Bakı şəh. Səməd Vurğun küç.43/ World Business Center 16-cı mərtəbə

**Qaydalar:**

Müsabiqənin peşəkar münsiflər heyətini Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı təyin edir. Münsiflər heyəti məxfi seçim nəticəsində dörd ssenarini qiymətləndirəcək. Qalib ssenarilər pul mükafatı və diplomla təltif olunacaq:

· Qran Pri - 3000 manat (Ekranlaşdırılması nəzərdə tutulub)


Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı
"YENI NƏFƏS-II"
adlı qısametrajli ssenari müsabiqəsi elan edir.
*Məqsəd:*
Müsabiqə kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirmək məqsədi ilə keçirilir.
Müsabiqədə həm də digər sahələrdə çalışan gənclərə, kinoda özlərini sınamaq imkanı yaratmaq və bununla da mövcud rəqabəti gücləndirmək mövqeyi tutur.
*Şərtlər:*
•Yaşı 35-ə qədər olan bütün şəxslər müsabiqəyə ssenarisini təqdim edə bilər.
•Müsabiqəyə istənilən janrda, bədii, sənədli və animasiya ssenariləri qəbul olunur.
•Müsabiqəyə təqdim olunan ssenarinin hüquqları müəllifə məxsus olmalı, satılmamalı və çəkiliş dövründə olmamalıdır.
•Ssenari orijinal, yəni ekranlaşdırılmamış olmalıdır.
•Qısametrajlı film üçün nəzərdə tutulmuş ssenarilər müsabiqəyə 20 səhifədən çox olmamaq şərti ilə, üç nüsxədə, çap olunmuş və CD diskdə rəqəmsal daşıyıcıda təqdim olunmalıdır.
•Şrift Courier New, ölçü 12 tələb olunur.
•Çap olunmuş ssenarilərdə müəllifin ad və soyadı qeyd olunmamalıdır.
•Müəllif ssenari ilə birgə tərcümeyi-halını da təqdim etməlidir.
•Hər bir müəllif 3 (üç) ssenaridən artıq təqdim edə bilməz.
•Müsabiqəyə təqdim olunan ssenarilər geri qaytarılmır.
•Ssenarilər 31iyul 2016-cı il tarixinə kimi Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının ünvanına göndərilməlidir.
•Ünvan: Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı, Bakı şəh.Səməd Vurğun küç.43/ World Business Center 16-cı mərtəbə
*Qaydalar:*
Müsabiqənin peşakar münsiflər heyətini Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı təyin edir.Münsiflər heyəti məxfi seçim nəticəsində dörd ssenarini qiymətləndirəcək.
Qalib ssenarilər pul mükafatı və diplomla təltif olunacaq:
**•Qran Pri – 3000 manat** (Ekranlaşdırılması nəzərdə tutulub)
**•I yer 2000 manat**
**•II yer 1500 manat**
**•III yer 1000 manat**
Müsabiqənin nəticələri 2016-cı ilin sentyabr ayında açıqlanacaq.
Əlaqə üçün:Tel: +99412 597-48-04
Fax: +99412 597-48-03
Mob:+99451 427-41-03
arki.2012@mail.ru
İnformasiya dəstəyi:
AZƏR TAC · TREND · Day.Az · SƏS QƏZETİ · Mədəniyyət · KASPI

· I yer 2000 manat

· II yer 1500 manat

· III yer 1000 manat

Müsabiqənin nəticələri 2016-cı ilin sentyabr ayında açıqlanacaq.

***Əlaqə üçün: Tel: +99412 597-48-04***
***Fax: +99412 597-48-03***
***Mob: +99451 427-41-03***
***arki.2012@mail.ru***

İnformasiya dəstəyi:

"AZƏRTAC", "Trend", "Day.az", "Səs", "Mədəniyyət", "Kaspi" qəzetləri

# UNEC-də biznes simulyasiyası yarışı - "İnkişaf bi(r)likdədir"



***Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, Yeniliyə Doğru Gənclər Fondu və Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dəstəyi ilə "İnkişaf bi(r)likdərir" devizi altında qiymətli kağızlar sahəsində biznes simulyasiya yarışı keçirilib. Yarışın keçirilməsində məqsəd qiymətli kağızların alqı-satqı prosesinin və brokerlərin vasitəçilik funksiyalarını gənclərə öyrətmək, biznes sahəsində tələbələrin kommunikativ bacarıqlarını inkişaf etdirməkdir. Biznes simulyasiya "praktiki təhsil" konsepsiyasının modellərindən biridir. Simulyasiya oyununda qiymətli kağızlar bazarında müxtəlif situasiyaların modelləşdirildiyini, iştirakçılara idarəetmənin bütün aspektləri - müddət, qiymət, risk, qərarları qəbul etmək bacarığı və digər faktorlar öyrədilir.***

Simulyasiya yarışı iki gün davam edib. Hər biri dörd tələbədən ibarət 10 komanda qiymətli kağızlar bazarının iştirakçıları qismində çıxış edib. Yarışın birinci günü gənclər üçün idarəetmə bacarıqlarının inkişaf etdirilməsi üzrə master-klass keçirilib, birja - simulyasiya ilə tanışlıq olub. İkinci gün isə komandalar virtual bazarda rəqabət aparmağı və düzgün qərarların verilməsi bacarıqlarını nümayiş etdiriblər.

Sonda maliyyə bazarı mütəxəssislərindən ibarət müstəqil münsiflər heyəti qalibləri müəyyən edib. Vaxt və korporativ resurslardan optimal istifadə etməklə ən yaxşı nəticə göstərən UNEC-in Beynəlxalq İqtisadiyyat Məktəbinin tələbələrindən ibarət komanda birinci yerin qalibi olub. Maliyyə və Mühasibat, Beynəlxalq İqtisadiyyat Məktəbi və Magistratura Mərkəzinin tələbə və magistrlarından ibarət komanda ikinci, SABAH qruplarının komandası isə üçüncü yerə layiq görülüb. Biznes - simulyasiya yarışının xüsusi nominasiyası olan "Bütün maliyyə alətlərindən istifadə edən" komanda isə Biznes və menecment fakültəsinin tələbələri olub.

Birinci yerin qalibləri "ZZ group" şirkətinin təcrübə proqramında müsabiqədən kənar iştirak etmək hüququ qazanıblar. Qeyd edək ki, bu şirkətdə təcrübə keçmək üçün tələbələr ikimərhələli imtahandan keçirlər.

**NƏZAKƏT**

# "Gənc İlhamçılar"ın Qubadakı yay düşərgəsində istirahəti başa çatıb




***Nəsimi rayonunun aztəminatlı ailələrindən olan və Qarabağ müharibəsi əlilləri və veteranlarının, təhsildə və idmanda fərqlənən şagirdlər, ümumilikdə 150 nəfər yeniyetmə üçün Quba şəhərinin ən mənzərəli yerində yerləşən İstək liseyinin Quba filialının ərazisində təşkil olunmuş vətənpərvərlik təmayüllü, ödənişsiz "Gənc İlhamçılar" yay istirahət düşərgəsində keçən mənalı və yaddaqalan istirahət başa çatmış və bununla əlaqədar düşərgədə təntənəli bağlanış mərasimi keçirilmişdir. Nəsimi rayon icra hakimiyyəti tərəfindən xoş istirahət üçün hər cür şərait yaradılan düşərgədə şagirdləri gələcəkdə hərbi xidmətə layiqincə hazırlamaq məqsədi ilə silsilə tədbirlər keçirilmişdir.***

Düşərgədə məşğələlərin hərbi nizamnaməyə uyğun tərzdə keçirilməsi uşaqların istirahətini daha maraqlı və yaddaqalan etmişdir. Uşaqların Quba rayon Heydər Əliyev Mərkəzinə, Quba rayon Gənclər Mərkəzinə, rayonun tarixi guşələrinə, o cümlədən Qubadakı Soyqırım, Muzey-Kompleksinə gəzintiləri təşkil olunmuşdur.

Düşərgənin bir günü Müdafiə Nazirliyinin Qusar rayonundakı "N" saylı hərbi hissəsində təşkil olunmuş, burada məktəblilər hərbi hissənin şəxsi heyətinin xidməti, yaşayış şəraiti, silah və texnikası ilə yaxından tanış olmublar.

Düşərgənin bağlanışı ilə əlqadar təşkil olunmuş tədbir Azərbaycan Respublikasının Dövlət Himni qonaqların, şagirdlərin birgə ifası ilə başlanıbdır. Nəsimi rayon icra hakimiyyəti başçısı Asif Əsgərov yeniyetmələr qarşısında çıxış edərək keçirilən düşərgə layihəsinin əhəmiyyətini vurğulayıb, ölkə başçısı İlham Əliyevin yeniyetmə və gənclərimizin sağlam böyüməsi, gənc nəslin vətənə məhəbbət, Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması istiqamətində gördüyü işlərdən, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın uşaq və yeniyetmələrə olan diqqət və qayğısından, bu istiqamətdə həyata keçirdiyi layihələrdən söz açıb, rayonda yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili istiqamətində görülən işlər, aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri, həyata keçirilən sosial layihələr barədə ətraflı məlumat verib.

**ÜLVİ**

# Dünya Qəzetçilər Federasiyasının sədri Azərbaycan Mətbuat Şurasında

***Dünən Dünya Qəzetçilər Federasiyasının sədri Menderes Dəmir Azərbaycan Mətbuat Şurasında olub.***



Qonağı salamlayan Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirib ki, rəhbərlik etdiyi qurumun beynəlxalq əməkdaşlıq sahəsindəki fəaliyyətində türk dünyasını təmsil edən media təşkilatları ilə qarşılıqlı münasibətlər mühüm yer tutur: "Bu münasibətlər yalnız media sahəsi ilə məhdudlaşmır, ümumən ictimai məzmun daşımaqla ortaq dəyərlərimizin təbliğini nəzərdə tutur. Əlbəttə, təbliğat başlıca olaraq mediada aparılmalıdır. Ancaq düşünürəm ki, media qurumları, eyni zamanda bizi birləşdirən, xarakterizə edən məsələlərlə bağlı təşəbbüskarlıq da göstərməlidirlər".

M.Dəmir fikrini Dünya Qəzetçilər Federasiyasının həyata keçirdiyi Türkdilli Ölkələrin Sənədli Filmlər Festivalı layihəsi üzərində cəmləşdirib. O bildirib ki, festivala filmlərin qəbulu prosesi bu il avqustun 12-də başa çatacaq. Toplanmış ekran əsərlərinin qiymətləndirilməsi aparılacaq. Qalib filmlər Türk Dünyasının müxtəlif yerlərində nümayiş olunacaq.

M.Dəmir həmin filmlərin Azərbaycanda da nümayişinin əhəmiyyətini vurğulayıb və bu baxımdan Azərbaycan Mətbuat Şurası ilə əməkdaşlığın səmərəli olacağına inamını ifadə edib. Görüşdə mövcud xüsusda nəzərdə tutulan fəaliyyətin müxtəlif aspektləri ətrafında fikir mübadiləsi aparılıb.

**Aytən SƏMƏDOVA**

# Əliməmməd Nuriyev: "Dəyişikliklər Azərbaycanın inkişafında yeni dövr başladacaq"

***"Konstitusiyaya təklif edilən dəyişikliklər dünyada və ölkəmizdə gedən proseslərlə bağlıdır və indiki çağırışlara cavab verir. Dəyişikliklər xüsusilə iqtisadi inkişafın davamlılığını təmin etmək üçün önəmlidir".***

Bunu SİA-ya açıqlamasında Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, İnsan Haqları üzrə Birgə Qrupun üzvü Əliməmməd Nuriyev deyib. O qeyd edib ki, təklif olunan dəyişikliklərdə sahibkarlıq sahəsinin inkişafı ilə bağlı aydın normaların olması çox mühüm məqamdır: "Artıq burada dövlətin sahibkarlığın inkişafına müdaxilə imkanının hansı hədlərə qədər olduğu göstərilib. Bu, çox vacib məsələdir. Digər tərəfdən özəl mülkiyyətdən, torpaqlardan səmərəli istifadə, xüsusi mülkiyyətin sosial öhdəlikləri, hüquqlardan sui-istifadəyə yol verilməməsi, şəxsi sirrin qorunmasının etibarlılıq dərəcəsinin daha da artırılması, dövlət orqanlarında vətəndaşlara münasibətdə vicdanlı davranışın tələb edilməsi ilə bağlı normalar ilk növbədə vətəndaş hüquq və azadlıqlarının daha etibarlı şəkildə qorunmasını, konstitusion təminatları gücləndirir". Ə.Nuriyev bildirib ki, vitse-prezident institutunun yaradılması ilə bağlı məsələ də mühüm məqamdır: "Vitse-prezident institutunun yaradılması idarəetmədə çevikliyin daha da artırılması, iqtisadi islahatlara yanaşı, siyasi islahatların daha da dərinləşməsi, buna paralel olaraq aparılması və bir-birini tamamlamasını təmin etməyə xidmət edir. Bu institut icra hakimiyyətinin daha səmərəli, rasional və çevik fəaliyyət göstərməsini şərtləndirəcək.



Dünyanın 60-dan çox ölkəsində belə institutlar var". O əlavə edib ki, dəyişikliklərdə, həmçinin ölkənin suverenliyinə təhdidlərdən müdafiə, silahlı qüvvələrin təkmilləşdirilməsi və digər məslələr yer alıb: "Dünyada baş verən münaqişələr və müharibələr yeni etibarlı təhlükəsizlik sisteminin yaradılması ilə bağlı mühüm normaların konstitusiyaya gətirilməsini vacib edir. Dəyişikliklər Azərbaycanın inkişafında yeni dövr başladacaq, dövlətin səmərəli, çevik fəaliyyət göstərməsi, yaxşı idarəetmənin tətbiqi imkanlarının genişləndirilməsinə əlavə təminatlar yaradacaq, insan hüquq və azadlıqlarının daha etibarlı şəkildə qorunması, dövlətimizə, ölkəmizə qarşı təhdidlərin qarşısının alınmasında mühüm rol oynayacaq".

# Azər Həsrət: "Aksiyalara çağırılanların imkanları artıq tükənib"

"Ümumiyyətlə, Azərbaycanda Referendumun keçirilməsi tam Konstitusiya və qanunlar çərçivəsindədir. Burada qanunsuz heç bir hərəkətə, əmələ yol verilmir. Təbii ki, Azərbaycan xalqı da bu referenduma öz münasibətini məhz həmin gün yəni konkret olaraq sentyabrın 26-da səsvermə günü bildirəcək. Beləcə, nəticələr də ona uyğun olaraq elan ediləcək". Bunu SİA-ya Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsinin (CASFEN) sədri Azər Həsrət deyib. Kimlərinsə buna müxtəlif aksiyalar keçirməklə etiraz etməsinə gəlincə sədr bildirib ki, bu da təbii bir şeydir: "Çünki Azərbaycan demokratik ölkədir. Burada fərqli düşünənlər, mövqeyi olanlar fikirlərini açıq şəkildə ifadə edə bilərlər. Bu baxımdan o qüvvələrin belə bəyanat verməsi əslində elə Azərbaycanın demokratik imicinin bir daha təsdiqlənməsi deməkdir. Ümumiyyətlə, mən kütləvi aksiyaların keçirilməsinə o qədər də inanmıram. Çünki heç şübhə etmirəm ki, kütləvi aksiyalara çağırılanların imkanları artıq tükənib. Onlar böyük bir sayda insanları meydana toplayıb səfərbər edə bilməyəcəklər. Bu baxımdan narahatçılığa gərək yoxdur. Ümumilikdə cənab Prezidentin bu təşəbbüsü ciddi milli dəstək görəcək. Yəni ölkə əhalisinin böyük əksəriyyəti böyük ehtimalla və böyük faizlə onun bu təşəbbüsünü dəstəkləyəcək. Ona görə də etirazçıların etiraz bəyanatlarına o qədər də əhəmiyyət verməyə gərək yoxdur".

# Bala Kərimlinin "gizli missiyası"

*Və yaxud onun Senatla nə əlaqəsi*

***Bəlli olduğu kimi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi konstitusiyaya əlavə və dəyişikliklər haqqında Referendumun keçirilməsi mövzusu gündəmə gəldikdən sonra bir sıra ənənəvi müxalifət partiyaları, o cümlədən AXCP sədri Əli Kərimli, necə deyərlər, "daş atıb-başını tutdu" ki, sən demə, sözügedən qərar "demokratiya maraqlarını boğur" və s. Əslinə qaldıqda, onlar uzun müddət idi ki, danışmağa, siyasi gündəmdə qalmağa mövzu tapa bilmirdilər.***

AXCP sədri Ə.Kərimli, hər zaman olduğu kimi, yenə də düşüb sosial şəbəkənin canına ki, bəs daha dözmür, belə yaşam onu incidir və nə etməli, küçələrə çıxmaq lazımıymış... Bununla da ürəyi soyumayan Ə.Kərimli başqa bir çıxış yolu axtarıb. Nə etsin, necə etsin ki, oğlu bala Kərimlini, yəni Türkel Kərimlini Vaşinqtona göndərsin, o da orada görüşlər keçirsin.

Göründüyü kimi, Ə.Kərimlidə həyasızlığın sonu görünmür. Ə.Kərimlinin oğlunun Vaşinqtonda görüşlər keçirməsi və onunla görüşənlər nə fikirləşib və nə əldə etmək istəyiblər? Azərbaycanın özündə Bristol macəralarından başqa heç nə ilə tanınmayan T.Kərimli Vaşinqtonda ciddi siyasət



adamlarının diqqətini nə ilə çəkə bilərdi? Axı normal halda, senator Dik Durbinin ofisində, hətta durbini dik qoyub baxsalar belə, Azərbaycanın siyasi həyatında bala Kərimlini görmək mümkün deyil ki, onu ABŞ-a dəvət etsinlər.

## Əli Kərimlinin casus oyunu

Casus oyunu təkcə bununla yekunlaşmır. Məsələ ondadır ki, Ə.Kərimli xarici pasportu olmadığı üçün Amerikaya gedə bilmir və referendum ərəfəsində bala Kərimlinin hansı siyasəti görünəcək. Bir də satılmış Kərimlinin oğlu da özü kimi satqın və casus olmalıdır.

YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov demişkən: "Əslində, Əli Kərimli çoxdan satılıb, sadəcə, onu hazırkı məqamda alan yoxdur. Hətta Gültəkin Hacıbəyli Ə.Kərimlini bazara çıxarsa da, onu alan tapılmır. Ə.Kərimli zamanında da, indi də erməni lobbisinə, erməni lobbisinin maliyyələşdirdiyi beynəlxalq təşkilatların pullarına o qədər çox satılıb ki, bu satılmışlıqların sayı-hesabı çoxluğundan itib."

Beləliklə, Dövlət Departamentinin hansısa rəsmisi, hansısa senator, hansısa konqresmen üçün Ə.Kərimlinin oğlu niyə maraq doğurmalıdır? Xüsusilə də, əgər onun Ə.Kərimlinin oğlu olmaqdan başqa heç bir işi-peşəsi, ictimai-siyasi statusu yoxdursa? Maraqlıdır, görəsən, onu görüşlərdə necə təqdim ediblər: "Türkel Kərimli, Əli Kərimlinin oğlu" şəklindəmi?

Görünür, bala Kərimli pasportsuz atasının özəl bir missiyasını bu yolla yerinə yetirmək istəyir. Ancaq 23 ildir ki, itirə-itirə, səfləri pozula-pozula parçalanan və dağılan müxalifətin, hər hansı bir layihəyə qarşı çıxmasının özü gülünc və istehzadoğurucudur. Siyasətdə olduqları müddətində dəfələrlə seçkiləri və referendumları boykot etmələrinə rəğmən, özlərini daha pis duruma sürükləyiblər. Onlara sərf edən budur ki, dövlət öz təməllərini möhkəmləndirməkdən ötrü xalqın marağına cavab verən qanun layihələri hazırlasın, bunlar da həmin layihələr ətrafında "varlıqlarını" sübut etməyə çalışsınlar.

***Rəfiqə HÜSEYNOVA***

# Niyə tələsirik?



SAMİR

**-Mənə pislik edən adama mən də pislik etməliyəmmi?**
**-Bəli!**
**-Bəs vicdan?**
**-Vicdan qorxuya verilən ikinci addır...**

**Viktor Hüqo**

Bir neçə gün öncə işıqfordan sürət götürən "Masaretti"nin xorultusundan qorxan qadın bətnindəki 6 aylıq körpəsini saldı. Sizi təbrik edirəm. Yeddi il uşaq gözləyən ananın arzuları da dəfn olundu. Elə həmin gün mənim də bir arzum intihar etdi. Təbrik edirəm. Bakıda "Qızılqaya" restoranında transla bir oğlan evləndi, daha doğrusu, iki kişimizi bir-biri ilə evləndirib, calaq etdik. Gəlinin də adı Aydındır. Hamımızı təbrik edirəm. Həyatda cəmi iki dostum var, bu münasibətlə onları da təbrik etməyi özümə borc bildim. Biri borc əlindən qaynanasına sığınıb. Biri də intihara hazırlaşır, şahmat taxtasını xatırladan bircə köynəyi var. Onun da sağ çiyninə hər gün quş zıllayır. Pul gəlmir ki, gəlmir. Yayın cırhacır istisində belə, köynəyinin üstündən geyindiyi qalın gödəkçəsini çıxarmaz. Siqaretsiz qalmaqdan qorxduğu qədər heç övladsız qalmaqdan da qorxmur. Onun da iki gün sonra övladının toyudur. Təbrik edirəm. Dostum Aydın Canıyev öldüyü gün bu dünyanın onun illərdir geyindiyi yırtıq corabı qədər də dəyəri - qiyməti olmayacaq. Sizi əmin edirəm, əgər Yer kürəsi fırlansa idi, ana bətnindəki uşağı sala bilməzdi, iki kişi bir-biri ilə evlənməzdi, hətta Aydın Canıyevin ayağının tozu olmayanlar onun başını beş-üç manatla aldada da bilməzdilər. İnanmırsınızsa, sizə sübut edim.

Tutaq ki, təyyarə Bakıdan saat 5-də havaya qalxır. Deyək ki, İstanbula çatmaq üçün 2 saatlıq yoldur. Təyyarə havaya qalxır və İstanbulda enir. Təyyarə saat 7-də İstanbula çatır. Elə deyilmi? Yaxşı, təyyarə saat 1-də Bakıdan havaya qalxsa, saat neçədə İstanbulda yerə enməlidir? Saat 3-də. Bəs deyirsiniz, Yer kürəsi fırlanır!? Əgər fırlanırsa, niyə istənilən saatda mən havaya qalxsam, düz 2 saatdan sonra İstanbulda yerə enirəm? Yer fırlanırsa, mən ora çatanda, niyə başqa ölkəyə, şəhərə yox, məhz İstanbula düşürəm? Axı məntiqlə, Yer fırlanırsa, İstanbul da firlanmalıdır axı. Tak çto, nəyə inanırsınızsa inanın, mənə dəxli yoxdur. NASA bəyan edir ki, bəşəriyyətdə 114 planet, 6236 ulduz var. 114 Quranda surələrin, 6236 isə ayələrin sayıdır. İstəyirsinizsə, Quranda "ay" sözünün 12 dəfə işlənməsini, Günəş sözünün cəmi bircə dəfə işlədilməsini də bura əlavə edin.

Yadımdadır, 2005-ci il parlament seçkiləri ərəfəsində adını çəkmək istəmədiyim 77 yaşlı (o vaxt 66 yaş) professor rayonumuza gəlmişdi. Düz qırx il idi ki, Yardımlıya, doğulduğu el-obaya gedib-gəlmirdi. Deputat olmaq arzusu çəkib aparmışdı bu adamı rayona. Rayonun girişində şəlalənin qarşısında dayandı, dağları seyr edirdi, gözləri dolmuşdu. Qolunun biri digər qolundan uzun olan pencəyini başına çəkdi. Sanki yorğana bürünmüşdü. Mən onda başa düşdüm ki, kişi ağlayırsa, dəhşətli olur. Üzünü dağlara çevirib bu misranı dedi:

Səndən ayrılanda uşaq idim mən,
İndi hüzuruna qoca gəlmişəm...
Dağlar da mandat verə bilmədi bu adama...

# Keçmiş müsavatçılar İsa Qəmbərin saxtakarlıqlarından danışdılar

*Səbuhi Məmmədli: "Məni Müsavatdan İsa Qəmbəri sevmədiyimə görə qovdular"*



***Müsavat partiyasının qurultayından xeyli müddət keçsə də, istefa verənlərin, eləcə də İsa Qəmbər tərəfindən şərlə partiyadan çıxarılan şəxslərin ona qarşı ittihamları səngimək bilmir. Bu dəfə, ADR-in təsisçilərindən olan, keçmiş müsavatçı Hüseyn Məlik İ.Qəmbər haqqında sərt ifadələr işlədərək, onu qorxaqlıqda ittiham etdi.***

Müsavatdan istefa verməsinin səbəblərindən danışan H.Məlik bildirib ki, Arif Hacılının bütün alternativləri Müsavatdan bu və ya digər formada uzaqlaşdırıldılar: "Düzdür, mən Müsavatdan istefa verdiyimə görə peşman deyiləm. ADR sədri Qubad İbadoğlu çağdaş siyasətimizdə əxlaqı, mənəviyyatı və ləyaqəti ilə nümunə olan bir adamdır. Müsavat partiyasının MNTK-sı Qubad bəyi Müsavat partiyasından kənarlaşdıran gün mən MNTK-nın qərarına etiraz edərək, Müsavat partiyasından istefa verdim. Bu gün də istefamla bağlı verdiyim qərarı düzgün hesab edirəm. Bildiyiniz kimi, mən qurultaya qədər Müsavat başqanının müşaviri idim. Qurultaya 1 ay qalmış başqanlığa namizəd Q.İbadoğlunu dəstəklədiyim üçün o zamankı başqan İ.Qəmbər məni sərəncamla müşavirlikdən çıxarmışdı." Keçmiş müsavatçı, partiyanın gənclər birliyinin üzvü Səbuhi Məmmədli "SƏS" qəzetinə açıqlamasında partiyadan uzaqlaşdırılmasının səbəblərini açıqlayıb. S.Məmmədli qeyd edib ki, qurultay ərəfəsində, başqanlığa seçkilər vaxtı bizə mesaj göndərildi ki, əgər kimsə İ.Qəmbərin iradəsinə qarşı çıxsa, onun namizədini-A.Hacılını dəstəkləməsə, partiyadan qovulacaqlar: "İlk olaraq bu bizə ciddi görünmədi. Hətta seçkilərdən bir gün əvvəl A.Hacılı partiyanın qərargahına daxil olarkən, bilmədən ona salam verməyən gəncləri belə özünə rəqib gördü və şərləyərək, partiyadan uzaqlaşdırdı. Mənə təəccüblü gələn bu idi ki, İ.Qəmbər iclasda demokratiyadan, söz azadlığından, sərbəst seçimdən danışırdı, iqtidarı da yeri gəldi-gəlmədi, tənqid edirdi. Ancaq iclasdan sonra bizə qadağalar qoyulurdu. Bunun özü sübut edir ki, o, bitmiş siyasətçidir, sadəcə, insanları müxalifət adı altında aldatmaqla məşğuldur. Mənim Müsavatdan çıxarılmağım isə, lap gülünc şəkildə baş verdi. İ.Qəmbərin quyruğuna çevrilən Səxavət Soltanlı məni çağırdı və dedi ki, İsa bəy səni partiyada görmək istəmir. Səbəbini soruşduqda, bu cavabı aldım: sənin ona sevgin yoxdur... Görün, necə gülünc bir məsələdir. O kimdir ki, ona sevgim olsun!? Bu, o deməkdi ki, İ.Qəmbər partiyada diktatorluq edir. Kim onun kimi düşünmürsə, onu sevmirsə, deməli, düşməndir."

***Samir***

## Səhiyyə Nazirliyi: Bu il 260 nəfərdə qaraciyər sirrozu aşkarlanıb



Bu ilin birinci yarımilində hepatitlərin profilaktikası, diaqnostikası və müalicəsinin təşkili üzrə Səhiyyə Nazirliyində yaradılmış xüsusi komissiyaya 1388 müraciət (tibbi sənədlər) daxil olub. Bu barədə AZƏRTAC-a nazirliyin mətbuat xidmətindən bildirilib. Məlumata görə, komissiyada iyunun 30-dək kumulyativ olaraq 5135 (hepatit C - 3961, hepatit B - 1174) müraciətə baxılıb. Nəticə olaraq 3533 şəxsin müalicəsi haqqında (48 həftə - 1032, 24 həftə - 2501) qərar qəbul edilib. PZR müayinəsinə göndərilmiş xəstələrin ümumi sayı 990 nəfər təşkil edib. Hepatit B virusunun sağlam daşıyıcıları 577 nəfər, Hepatit B və Hepatit D koinfeksiyası 58 nəfər, Hepatit B və Hepatit C koinfeksiyası 77 nəfər, qaraciyər sirrozundan əziyyət çəkənlərin sayı 260 nəfər olub.

## Türkiyədə 5 nəfər ölüb, 12 nəfər yaralanıb



Türkiyənin Hakkari və Siirt vilayətlərində PKK terror təşkilatı üzvlərinin hücumu nəticəsində 5 nəfər həlak olub, 12 nəfər yaralanıb. SİA-nın Türkiyənin "Anadolu" agentliyinə istinadən məlumatına görə, Hakkari vilayətində PKK terrorçuları polis məntəqəsinə partlayıcı yüklü avtomobillə hücum ediblər. Nəticədə iki polis həyatını itirib, 11 nəfər yaralanıb. Yaralananlardan biri mülki vətəndaşdır. Sirt vilayətində hərbçilərə məxsus avtomobilin keçdiyi vaxt PKK terrorçularının yola döşədikləri partlayıcı qurğu işə salınıb. Baş verən partlayış nəticəsində üç hərbçi həlak olub, bir əsgər yaralanıb.

# ATƏT həm də dünyada insan hüquq və azadlıqlarının müdafiəçisidir

***Yaranışı SSRİ kimi atom silahına malik olan bir dövlətin mövcudluğu illərinə düşsə də, bir çox dövlətlərin ürəyincə olmuş, yaxşı da fəaliyyət göstərmişdir.***

Z.Nəbibəyli və İ.Cəlilbəyli yazırlar: “ATƏT, yəni Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Yekun Aktı 1975-ci ildə Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 ölkəsi, ABŞ və Kanadanın dövlət və hökumət başçıları tərəfindən imzalanmışdır. Helsinki Sənədi gərginliyin azaldılması, burada yaşayan xalqların yaxınlaşması, Avropa qitəsində və onun ətraf ölkələrində əməkdaşlığın inkişafının uzunmüddətli proqramı kimi mühüm əhəmiyyətlidir.

Azərbaycanın Qarabağla əlaqədar işlərində ikibaşlı oyunu 20 ildir davam etdirsə də (özümüzün də təqsirimiz var), təşkilat 1990-cı ildə Yeni Avropa üçün Paris Xartiyasının imzalanması və bir sıra yeni institutların yaradılması ilə ATƏM-in fəaliyyətində yeni dövrün başlanğıcını qoydu. 1991-ci ildə Berlində, 1992-ci ildə Praqada və Stokholmda, 1993-cü ildə Romada, 1994-cü ildə Budapeştdə, 1996-cı ildə Lissabonda və s. keçirilmiş görüşlər, qəbul edilmiş yeni-yeni sənədlər ATƏM-in fəaliyyətinə xeyli fəallıq gətirmişdir.

ATƏT-in Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlığı BMT Katibliyi ilə Çərçivə Müqaviləsinin bağlanmasına və BMT Baş Məclisində müşahidəçi statusuna əsaslanır.

1992-ci il Helsinki Bəyannaməsində üzv dövlətlər ATƏM-in BMT Nizamnaməsinin VII fəslinə uyğun olan regional saziş qəbul etdilər. 1994-cü ildə Budapeştdə keçirilən dövlət və hökumət başçılarının zirvə toplantısında ATƏM təşkilat statusunu qazanaraq, ATƏT adını aldı.

Helsinki Yekun Aktında-1975-ci ildə ATƏT üzvü olan dövlətlər qarşılıqlı münasibətlər qurmaq üçün 10 əsas müddəa qəbul etmişdir:

- dövlətlərin suveren bərabərliyi;
- zor tətbiq etməmə və zor tətbiq etməklə hədələməmə;
- dövlətlərin ərazı bütövlüyü; mübahisələrin sülh yolu ilə həlli;
- daxili işlərə qarışmamaq;
- fikir, vicdan, dini və etiqad azadlığı daxil olmaqla insan hüquq və azadlıqlarına hörmət;
- bərabərlik və xalqların müqəddəratını həll etmək hüququ;
- dövlətlər arasında əməkdaşlıq;
- beynəlxalq hüquqi öhdəliklərin vicdanla yerinə yetirilməsi.

Burada, istərdik ki, söylənilən 10 prinsipin bəzilərinə aid öz mülahizələrimizi bildirək. Dövlətlərin suveren bərabərliyi prinsipi ATƏT-in üzv dövlətləri, hamılıqla birmənalı şəkildə qəbul edilsə də, Ermənistan-Azərbaycan münasibətlərində ayrı-ayrı dövlətlər buna əməl etmir, ermənilərin tərəfini saxlayır, sözlə, sənədlə real əməl arasında heç bir uyğunluq yoxdur.

Zor tətbiq etməyə gəldikdə isə, ermənilər zor tətbiq etməkdən əl çəkmir, ATƏT-in qəbul edilmiş prinsiplərini pozur və hətta bu təşkilatın üzvü olan Rusiya silahla, maliyə dəstəyi ilə, ABŞ pulla yardım adı ilə, Fransa və islam ölkəsi olan İran isə başqa-başqa yollarla, üsullarla onlara qayğı göstərirlər.

Sərhədlərin toxunulmalığı isə ermələr tərəfindən 20 ildir pozulub, ATƏT-in üzv ölkələri isə təcavüzkarı heç cür öz adı ilə çağırmaq istəmir və dövlətlərin ərazi bütövlüyü də həmin qəbildədindir.

Mübahisələrin sülh yolu ilə həlli problemi, 1994-cü ildən Ermənistan - Azərbaycan tərəfləri arasında öz imzaları ilə təsdiq etsələr də, ermənilər hər gün sülhü pozur, atəş açır, dinc Azərbaycan sakinlərini öldürür, sülh sazişinin əhəmiyyətini sıfıra endirirlər.

Daxili işlərə qarışmamaq prinsipində də ermənilər öhdəliklərinə əməl etmirlər. Bütün beynəlxalq təşkilatlar da Azərbaycanın əleyhinə qeyri-qanuni, yalançı məlumatlar yayırlar, ölkə daxilində bir çox hallarda terror hadisələri törətməklə insanları məhv etmiş, ölkəyə külli miqdarda iqtisadi və mənəvi zərbələr vurmuşlar, 300 illik düşmənçiliklərindən əl çəkməmişlər.

Vicdan məsələsində isə, qısa desək, ermənin leksionunda belə bir fikir mövcud deyildir.

Dövlətlər arasında əməkdaşlıqdan danışdıqda isə, onlar həm Azərbaycandan və həm də Türkiyədən istədiklərini almaq, amma heç nədə güzəştə getmək və ya həqiqətə uyğun hərəkət etmək fikrindən çox-çox uzaqdırlar.

Xalqların öz müqəddəratını həll etmə prinsipində ermənilər səhv olaraq israrlıdırlar. Ermənilər artıq öz müqəddəratlarını Azərbaycan torpaqları olan İrəvan xanlığı hesabına, onların soyqırımı hesabına, ölkəmizi talanetmə hesabına əldə ediblər. Bir millət, bir xalq öz müqəddəratını neçə dəfə həll edər. Xüsusən də, bu torpaqlar başqa bir xalqa mənsub olduğu halda.

Ermənilərlə beynəlxalq hüquqi öhdəliklərin vicdanla yerinə yetirilməsindən isə söhbət belə gedə bilməz. Eşit - inanma. Erməni həyat tərzində öhdəliyin yerinə yetirilmə prinsipləri heç bir tarixdə, heç bir xalqla, hətta onların dostluq etdikləri ölkə və xalqlarda tarix boyu olmamışlar. Həmişə, hər yerdə qaraçı xislətlərinə uyğun tərzdə hamını aldatmışlar. Təəssüflənirik ki, digər ölkə və xalqlarla da, xüsusən də, Rusiya, İran, bizim özümüz ermənilərin bu xasiyyətlərini tarix boyu nəzərə almamışlar.

Müəlliflər göstərirlər ki, ATƏT-in əsas məqsədləri isə aşağıdakılardır:

- qarşılıqlı münasibətlərin yaxşılaşdırılması və uzunmüddətli sülhün təmini üçün şəraitin yaradılmasına yardım etmək;
- beynəlxalq gərginliyin zəiflədilməsinə yardım etmək;
- Avropada təhlükəsizliyin bölünməzliyini, həmçinin, üzv dövlətlər arasında əməkdaşlığın inkişafını qəbul etmək;
- Avropada və bütün dünyada sülh və təhlükəsizliyin qarşılıqlı asılılığını etiraf etmək;
- insan hüquqlarına riayət olunmasına, iqtisadi və sosial tərəqqinin, bütün xalqların rifahının yüksəlməsinə töhfələr vermək.

1990-cı ildə qəbul edilmiş Yeni Avropa üçün Paris Xartiyasına əsasən, hər bir şəxsin:

1. Fikir, vicdan, din və etiqad azadlığı;
2. Fikrini ifadə etmək azadlığı;
3. Birləşmək və dinc yığıncaqlar keçirmək azadlığı;
4. İstədiyi yerdə yaşamaq və yaşayış yerini dəyişmək azadlığı hüququ vardır.

Heç kəs:

1. Qanuni əsas olmadan həbs edilə və tutula;
2. İşgəncəyə və ya başqa ağır, qeyri-insani rəftara və ya cəzaya məruz qala bilməz.

Hər kəs:

1. Öz huquqlarını bilmək və onlara riayət edilməsini tələb etmək;
2. Azad və ədalətli seçkilərdə iştirak etmək;
3. Ədalətli və açıq məhkəmə baxışına;

ATƏT-in üzv ölkuləri 55-dən artıq olmaqla aşağıdakıları göstərıtıok olar. Amerika Birləşmiş Ştatlarr. Avstriya, Azərbaycan, Albaniya, Almaniya, Andörra, Bclarus, Belçika, Bolqarıstan, Bosniya və Hcrsoqovina, Böyük Britaniya, Vatikan, Qazaxıstan, Qırğızıstan, Danimarka, Yunanıstan, Yuqoslaviya, İrlandiya, İsveç, İsveçrə, İslandiya, İspanıya, İtaliya, Estoniya, Ermənistan, Kanada, Kipr, Gürcüstan, Latviya, Litva, Lixteynştcyn, Liiksemburq, Malta, Makedoniya, Macarıstan, Moldova, Monako, Niderland, Norveç, Polşa, Portuqaliya, Rusiya, Rumuniya, San-Marino, Slovakiya, Sloveniya, Tacıkistan, Türkmənistan, Türkiyə, Özbəkistan, Ukrayna, Finlandiya, Fransa, Xorvatiya, Çexiya və s.

Müəlliflər yazırlar: ATƏT-in quruluşu və insititutları isə aşağıdakılardır.

1. Dövlət vo hökumət başçılarının toplantısı. 1990-cı ilin noyabr ayında qəbul edilmiş Paris Xartiyasına əsasən, müşavirə hər iki ildən bır keçirilir. Müşavirədə ötən dövr ərzində baş verən hadisələrə yekun vurulur, iştirakçı dövlətlərin götürdükləri öhdəliklərə əməl etməsi ümumiləşdirilir, gələcək işin əsas istiqamətləri müəyyənləşdirilir.

2. ATƏT-in Xarici İşlər Nazirlərinin Şurası. Mərkəzi icraedici və sərancamverici orqandır. İldə bir dəfədən az olmayaraq toplamr. Şuranın əsas məqsədi dövlət və hökumət başçılarının zirvə toplantısını hazırlamaqdır.

3. Yüksək Vəzifəli Şəxslər Komitəsi. İki-üç aydan bir görüş keçirir və komitə aşağıdakı məsələlərə baxır:

- ATƏT-in fəaliyyətini müşahidə, idarə və əlaqələndirmək;
- cari siyasi məsələlər üzrə məsləhətləşmələr keçirmək;
- ümumi siyasi direktivləri hazırlamaq;
- Şuranın iclasları arasındakı dövrdə qərarlar qəbul etmək.

4. ATƏT-in fəaliyyət göstərən sədri vəzifəsini şuranın sonuncu iclasını qəbul edən ölkənin xarici işlər naziri icra edir. O, ATƏT-in cari fəaliyyətini əlaqələndirir və müzakirə edir. Fəaliyyət göstərən sədr icra fəaliyyətinə görə ümumi məsuliyyət daşıyır. Bu vəzifədə qalma müddəti, adətən, bir təqvim ilidir. Sədr aşağıdakılara arxalana bilər:

- tərkibinə keçmiş, indiki və gələcək sədirlərin daxil olduğu üçlüyə;
- hər bir xüsusi halda fəaliyyət göstərən sədrə əlavə kömək göstərmək, məsələn, münaqişələrin aradan qaldırılması və böhranların nizamlanması məqsədilə təsis edilə bilən xüsusi rəhbəredici qrupa;
- bu və ya digər böhran və münaqişə baş verdiyi hallarda aydın və dəqiq mandatla sədrə kömək təyin edilmiş şəxsi nümayəndələrə;

5. ATƏT-in üzv dövlətlərinin nümayəndələrindən ibarət Daim Komitəsi. (bu orqanı Daimi Şura da adlandırırlar). Bu komitə təşkilatın gündəlik əməli məsələlərini həll edir, Daimi Komitə Vyanada yerləşir. Onun işinə fəaliyyət göstərən sədrin nümayəndəsi rəhbərlik edir. Komitənin üzvləri ATƏT-in iştirakçısı olan dövlətlərin daimi nümayəndələri öz iclaslarını hər həftə Xoffburqda Konqress Mərkəzdə keçirirlər.

Daimi Şura siyasi məsələlər üzrə qərarlar qəbul edilməsi və məsləhətləşmələr aparılması ilə müntəzəm məşğul olur, ATƏT-ə aid olan bütün məsələlər barədə qərarlar qəbul edir. O, həmçinin, fövqəladə vəziyyətləri müzakirə etmək üçün də çağırıla bilər.

6. Milli azlıqların işi üzrə Ali Komissar milli azlıqlarla bağlı məsələlər üzrə operativ tədbirləri həyata keçirir.

ATƏT entik ixtilafların böyüyərək ATƏT regionunda münaqişələrə səbəb ola bilməsinin ilkin mərhələsində onun qarşısının alınması üçün operativ tədbirlər görülməsi məqsədilə dünyada sülhə, ATƏT-ə üzv dövlətlər arasında sabitliyə və münasibətlərə təhlükə törədə biləcək etnik ixtilafların araşdırılması, onların ilkin mərhələdə nizama salınmasına yardım etməyə xidmət göstərir. MAAK-ın Bürosu Haaqada yerləşir.

7.Təhlükəsizlik sahəsində əməkdaşlıq üzrə forum. ATƏT-in iştirakçı dövlətlərinin nümayəndə fəaliyyətindən ibarət olan forum ATƏT-in tərkib ünsürlərindən biridir. Forumun görüşləri hər həftə Vyanada, Xoffburq Mərkəzində keçirilir. TƏF çərçivəsində Avropanın bütün ərazisində təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi üzrə konkret tədbirlər barədə danışıqlar və məsləhətləşmələr aparılır.

Onun əsas vəzifələri:

a) silahların məhdudlaşdırılması, tərksilah və etimad üzrə konkret tədbirlər barədə danışıqlar və məsləhətləşmələr aparılmasından;

b) təhlükəsizlik məsələləri üzrə müntəzəm məsləhətləşmələr keçirilməsi və sıx əməkdaşlıq edilməsindən və

v) münaqişələrin başvermə təhlükəsinin daha da azaldılması istiqamətində fəaliyyətdən ibarətdir. Bu forum, həmçinin təhlükəsizlik və etimadın möhkəmləndirilməsi tədbirlərinin (TET) həyata keçirilməsinə, hərbi doktrinalar üzrə seminarlar hazırlanmasına, yekunların qiymətləndirilməsi üzrə illik müşavirələrin keçirilməsinə cavabdehdir və razılaşdırılmış TET-lərin çərçivəsində təqdim olunmuş informasiyaların araşdırılması və baxılması üçün bir forum kimi xidmət göstərir.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

səs
Son səhifə 29 iyul

## Alimlər: Müntəzəm lobyalı yeməklər yeyənlər həmişə mülayim xasiyyətli və sakitdir

Çeşidindən asılı olmayaraq, lobya çox faydalı və dadlıdır. Lobya tərkibinin zənginliyi ilə əti əvəz edir. Baxmayaraq ki, ət heyvan, lobya isə bitki mənşəlidir. Zülal, vitamin və mikroelementlər tərkibinə görə ət və lobya çox oxşardır. Tez doyma hissi lobyanın tərkibindəki çoxlu miqdarda olan zülal sayəsində əmələ gəlir. Bundan başqa onun tərkibində karbohidrat, amin turşuları, B qrup vitaminləri və C vitamini, mineral maddələr, natrium, kalium, kalsium mövcuddur. Alimlər təsdiqləyir ki, müntəzəm olaraq lobyalı yeməklər yeyən insanlar həmişə mülayim xasiyyət və sakitdir-axı lobya sinir sisteminə faydalı təsir göstərir. Bundan başqa o, orqanizmdə maddələr mübadiləsini yaxşılaşdırır. Termiki emal və konservləşdirmə zamanı lobya öz faydalı keyfiyyətlərini itirmir. Konservləşdirmə zamanı onun tərkibində 70%-ə qədər vitamin və 80%-ə qədər mineral maddə qalır. Lobyanın konservləşdirilməsi nahaqdan tətbiq olunmur. Yaşadığımız sürət əsrində lobyadan tez bir zamanda ən sadə yeməyi belə hazırlamaq çox çətindir. Axı onu əvvəl soyuq və qaynadılmış suda təxminən 1 sutka və suyunu hər 5-6 saatdan bir dəyişərək saxlamaq və sonra 1,5 saat saatdan az olmayaraq qaynatmaq lazımdır. Bu səbəbdən də konservləşdirilmiş lobya daha əlverişlidir.



## Qadınlar niyə daha uzun yaşayır?

Araşdırmalara görə, qadınların kişilərdən uzun yaşamasının səbəbi, immunitet sistemlərinin daha güclü olmasıdır. Bədənin müdafiə etməsi yaşla azalarkən, kişilərin xəstəliklərə qarşı müqavimətinin aşağı olması ömürlərini də azaldır. Yaponiyalı alimlər hesab edir ki, immunitet səviyyəsi ilə bağlı testlər, bioloji yaşla əlaqədar açıqlama verə bilir. İmmunitet sistemi, bədəni infeksiyaya və xərçəngə qarşı qoruyur. Yaponiyada edilən araşdırmada, immunitet sistemində yaşla əlaqəli dəyişikliklərin, qadınlarla kişilərdə orta ömür müddəti arasındakı fərqi açıqlayıb-açıqlaya bilməyəcəyi araşdırıldı. Yaşları 20-90 arasında dəyişən 356 sağlam qadın və kişidən alınan qan nümunələrini araşdıran alimlər hər iki cinsdə də, gözlənildiyi kimi yaşla birlikdə ağ qan hüceyrələrinin azaldığını müşahidə etdi. Ancaq immunitet sisteminin iki təməl elementi olan T və B hüceyrələrinin yaşlanma sürətinin qadınlar və kişilər arasında fərqli olduğu müşahidə edilib.



## Yaşıl bibər ye, immunitetini gücləndir və gec qocal...

Yaşıl bibər xərçəngə qarşı çox təsirlidir, immuniteti gücləndirir, yaşlanmağı gecikdirir, həzmi asanlaşdırır. Çiy halda salat və yeməklərə əlavə edildikdə toxluq hissi yaradır və arıqlamağa kömək edir. Bibər mədəni qüvvətləndirir, infeksiyalara qarşı bədəni qoruyur, bədənimizin təmizlənməsinə kömək edir. Tərkibindəki P vitamini arteriya sağlamlığı üçün xeyirlidir. Tərkibindəki A və C vitamini göz üçün çox xeyirlidir, damarların yumşalmasına və qanamağa qarşı təsirlidir. Eyni zamanda ürək-damar sağlamlığı üçün vacibdir, ürək xəstəliklərindən qoruyur, tərkibindəki K vitamini qanamaları azaldır, mədə ifrazatını artırır. Xüsusi lif baxımından zəngin qabığı ilə yeyilən pomidor həzmi yaxşılaşdırır, yaşlanmağı gecikdirir, qanı təmizləyir, ürək xəstəliklərinə qarşı qoruyucudur. Mədə və bağırsaqların nizamlı işinə kömək edir və qəbizliyi aradan qaldırır, damar sərtliyi və revmatizmə kömək edir. Böyrək daşlarının düşməsinə köməkçi olur.

ELAN

Əliyeva Füruzə Əkbər qızına Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 410013011713 saylı texniki pasport və çıxarış seriya MA № 0342296 (Şamaxı rayonu Çuxuryurd kəndi) itdiyi üçün etibarsız saylır.

Bakı şəhəri Biləcəri Bələdiyyəsində keçirilən 03.11.2006-cı il tarixli 12 saylı iclasın protokoluna əsasən, Tağıyev Vüqar Qafar oğluna yaşayış evinin tikintisi üçün ayrılmış 400,0 kvadratmetr torpaq sahəsi üçün təqdim edilmiş 839 nömrəli qərar sənədi itdiyi üçün etibarsız sayılır.

## "Qarabağ" biletlərin qiymətini dəyişmədi



"Qarabağ"ın Çempionlar Liqasının III təsnifat mərhələsində Bakıda "Viktroriya" ilə keçiriləcək cavab oyununa maraq böyükdür. Bunu Qol.az-a açıqlamasında klubun mətbuat xidmətinin rəhbəri Nurlan İbrahimov deyib. Klub rəsmisi Tofiq Bəhramov adına Republika stadionunda keçiriləcək oyunda tribunaların tam dolacağının gözlənildiyini bildirib: "Bizə azarkeşlər tərəfindən çoxsaylı zənglər gəlir. İndidən hiss olunur ki, oyuna maraq çoxdur. Hətta gözlədiyimizdən də çox azarkeşin gələcəyi ehtimal olunur". N.İbrahimov qeyd edib ki, oyuna marağın çox olmasına baxmayaraq, klub biletlərin qiymətini dəyişməyib: "Biletlərin qiyməti əvvəlki oyunlarda olduğu kimi, 1,2,5 manat civarında olacaq. Həftənin şənbə günündən etibarən azarkeşlərimiz biletləri Respublika stadionunun kassalarından ala bilərlər". Xatırladaq ki, avqustun 2-də keçiriləcək oyun saat 20:30-da başlayacaq.

## Kolumbiya klubu ikinci dəfə Libertadores kubokunu qazanıb



Cənubi Amerikanın ən nüfuzlu klub turniri olan Libertadores kubokunun qalibi müəyyənləşib. AZƏRTAC xəbər verir ki, turnirin kubokunu Kolumbiyanın "Atletiko Nasional" futbol komandası qazanıb. Medelin təmsilçisi final duelinin ikinci oyununda Ekvadorun "İndependyente del Vale" klubuna qalib gəlib - 1:0. Yeganə qolu qarşılaşmanın 9-cu dəqiqəsində Migel Borxa vurub. Ekvadorda keçirilən ilk qarşılaşma 1:1 hesabı ilə başa çatmışdı. Bununla da "Atletiko Nasional" tarixində ikinci dəfə mükafata sahib çıxıb. Kolumbiya klubu 1989-cu ildə də kuboku qazanmışdı.



## "Barselona": Ardanı satmırıq!

"Barselona" Arda Turanı satacaqları iddialarına münasibət bildirib. Qol.az-ın İspaniya mətbuatına istinadən yaydığı xəbərə görə, klubun nümayəndəsi Roberto Fernandes türk yarımmüdafiəçini satmağı düşünmədiklərini deyib: "Arda çətin mövsümü geridə qoydu. Hamımız bilirik ki, o, əvvəlki illərdə daha yaxşı oynayırdı. Ardanın "Atletiko"dakı kimi oynamağını gözləyirik. Onu satmağı heç vaxt düşünməmişik. Çünki komandanın önəmli futbolçularından biridir".

## "Sevilya"nın hücumçusu "Latsio"da



"Sevilya"nın hücumçusu Çiro İmmobilenin yeni komandası müəyyənləşib. İspaniya mətbuatının yazdığına görə, italiyalı futbolçu karyerasını bundan sonra doğma vətənində davam etdirəcək. 26 yaşlı futbolçu yeni mövsümdən "Latsio"da oynayacaq. İtaliya klubu bu transfer üçün "Sevilya"ya 9 milyon avro ödəyəcək. İmmobile "Latsio"da ilinə 2 milyon avro qazanacaq. Qeyd edək ki, ötən mövsümün ilk yarısını "Sevilya"da oynayan İmmobile qışda "Torino"ya icarəyə verilib.



## İdmançılarımız Paralimpiya festivalında iştirak edəcəklər

Avqustun 2-7-də Belarusun paytaxtı Minskdə beynəlxalq Paralimpiya festivalı keçiriləcək. AZƏRTAC xəbər verir ki, festival çərçivəsində iki idman növü üzrə yarışlar təşkil olunacaq. Bouling yarışlarında ölkəmizi Bahar Şıxıyeva, əlil arabasında idman rəqsi turnirində isə Vüsalə Kərimova və Fərid Mehdiyev təmsil edəcəklər. Yarışlardan sonra Azadə Abdullayeva paraşütlə 3 min 500 metr hündürlükdən tullanacaq. Həmçinin idmançılarımız Vüsalə Kərimova və Bahar Şıxıyeva da paraşütlə tullanacaqlar. Bu layihə Belarusun Əlil idmançılara dəstək Fondu və Azərbaycan Respublikası "Əlil idmançılara dəstək" İctimai Birliyinin təşəbbüsü ilə keçiriləcək.

## "Barselona" rekord qazanc əldə edib

"Barselona" futbol klubu 2015/2016-ci il mövsümündə 679 milyon avro gəlir əldə edib. SİA-nın məlumatına görə, bu, klub tarixi üçün rekord rəqəmdir. "Barselona"nın xalis gəliri isə 29 milyon avro təşkil edib. Kataloniya klubu 2021-ci ildə 1 milyard avro qazanmağı hədəflədiyini açıqlayıb.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500